
AMİD SƏLİMOĞLU
Malavarın hekayəsi
Mən hiss edərək yazdım, siz də hiss edərək oxuyun...
"Kimsəsiz" romanının yazarından

*Mən, Bəşir. İllərdir edilən duaların mükafatı sayılan, dörd qızdan sonra doğulan Bəşir. Adına qurbanlar kəsilən, qapı-qapı şirinlik paylanılan, toy-bayram edilən Bəşir. Bir kənddən digər kəndə qədər sorağı yayılan, görənlərin dilinə düşən Bəşir. Gözlərindəki işığa həsədlə baxılan, üzündəki nura aşiq olunan Bəşir. Zərifə ananın evim-eşiyim dediyi, çoban Həsənin nəslinin davamçısı olan Bəşir... Ancaq bircə sözlə taleyi ondan üz döndərən, həyatı solan Bəşir. Danışa bilməyəcəyini öyrəndiyində atasının gözündə bir heçə çevrilən, əqli qüsurlu olduğunu biləndə anasının göz yaşlarına dönən Bəşir. Bacılarının qardaş deyə inana bilməyəcəkləri, onların övladlarının dayı deməyə utandıqları Bəşir. Kəndin böyüklərinin yazığı gəldiyi, kiçiklərinin isə lağlağı etdiyi Bəşir. Yat Bəşir, dur Bəşir, gül Bəşir, ağla Bəşir! Bir sözlə, mən, məhşur Dəli Bəşir.*

– Bəşir, ay Bəşir! Hara yoxa çıxmısan?!

Atam qışqıraraq məni çağırırdı. Tez yerimdən qalxaraq yanına, təpənin üstünə doğru qaçmağa başladım. Deyəsən, nəsə olmuşdu. Uzaqdan məni görərək əli ilə tələsməyimi istədi. Əsəbləşdiyi üzündən bəlli idi. Yanına çatıb sual dolu baxışlarla üzünə baxdım.

– Hansı cəhənnəmdəsən indiyə kimi! Səhərdən səni axtarıram.

Əlimdəki kitabı ona göstərək kitab oxuduğumu demək istədim.

– Kitab oxumağın vaxtıdır? – Kitabı əlimdən alaraq qırağa tulladı. – Cəld ol qaç yuxarı! Sürünün qabağını kəs! Hava qaralır!

Təbəssümlə başımı yellədim. Sonra cəld yerimdən götürülərək yuxarı, dağa tərəf qaçmağa başladım. Qoyunlar ətrafa səpələnmişdi. Onları qaytarmalı idim. Heç on dəqiqə keçməmişdi ki, qoyunları qabağıma qatmış, atamın yanına gətirmişdim. Ancaq hirsi soyumadığından hələ də əsəbi idi. Elə hey üstümə qışqırırdı.

Kəndə çatdığımızda havanın qaralmağına az qalmışdı. Qoyunları tövlənin qabağındakı ağıla sürmüş, anamın onları necə sağdığına tamaşa edirdim. Südünü aldığı qoyunları quzuların öhdəsinə buraxırdı. Quzular isə bir-birləri ilə dalaşa – dalaşa analarının döşlərindən az da olsa süd əmməyə çalışırdılar.

Atam tövlənin qapısını bağladıqdan sonra üçümüz də evin yolunu tutduq. Mənə yenə də əsəbi idi. Onu çox vaxt başa düşə bilmirdim. Elə hey qışqırır, acıqlanırdı. Düzdür, hələ bircə dəfə də olsun, məni vurmamışdı. Amma heç sevməmişdi də. Səbəbini bilmirəm. Bəlkə də xasiyyəti belə idi.

Anam stolun üstünü hazır etdikdən sonra üçümüz də bir yerdə oturaraq axşam yeməyini yedik. Yemək zamanı heç kim bir söz belə danışmırdı. Atam susur, anam isə məni izləyirdi. Ara-sıra gözlərimiz bir-birinə sataşır, gülümsəyərək qarşılıq verirdik. Atam isə başını qaldırmır, qaşlarını çataraq yeməyini yeyirdi. Sanki hirsini yeməkdən çıxarırdı. Birdən cəld ayağa qalxaraq stulu arxaya itələdi.

– Çayı otağa gətirərsən. Mən yediyimi yedim.

– Yaxşı, ay kişi, – deyə anam da onun arxasıyca qalxaraq samovarın yanına getdi.

Mən isə yeməyimi bitirməmişdim. Sakitcə şorbadan qaşıqlayır, ara-sıra köynəyimin qolu ilə ağzımı silirdim. Bunu etməkdən xoşum gəlirdi. Ağzımın qıraqları təmiz olurdu onda.

Anam bu arada çayı armudu stəkana süzmüş, atamın yanına aparmışdı. Bir neçə dəqiqə keçməmişdi ki, ikisinin nə üstündəsə mübahisə etdiyini eşitdim.

– Yavaş, ay kişi. Uşaq eşidəcək.

– Eşitsin də! Guya eşidib nəsə qanır!

– Elə demə, qurban olum. Ona niyə hirslənirsən? Kitab oxusa nəyi pisdiki? Bəlkə...

– Nə bəlkə?! Bəlkə oxuyub alim olacaq? Ağzından iki sözü yan-yana çıxara bilmirik. Oxuyub neyləyəcək! Kimə danışacaq oxuduqlarını! Deyəsən, sənin yaddaşın pozulub... oğlun laldır, – atam danışdıqca əsəbi daha da artırdı və bu onun səsinə də təsir edirdi. Anam isə ağlamağa başlamışdı belə. Əli ilə atamı sakitləşdirməyə çalışırdı.

– Elə demə, ay Həsən. Allah baxır axı! Nə olsun danışa bilmir? Bunun kitaba nə dəxli var?

– Bəlkə də heç oxuduğunu da başa düşmür, boş-boş vərəqləyir. Sən o Allaha bir de görək, biz ona neyləmişdik ki, bizə bunu verdi? Nə danışa , nə də düz-əməlli nəyisə dərk edə bilir... Məndən axı nə istəyir? Soruş ondan! – şəhadət barmağını yuxarı qaldırdı. Mən bunu qapının arasından rahatlıqla görə bilirdim.

– Həsən, qurban olum. Özündə bilirsən, bu sözləri ürəkdən demədiyini. Ona görə də daha əsəbləşmə. Yat, dincəl. – Anam gözünün yaşını silərək ayağa qalxdı.

Mən yenidən üzümü çevirərək yeməyimi yeyir, danışılanları eşitmədiyimi göstərmək istəyirdim. Anam otaqdan çıxaraq mənə yaxınlaşdı.

– Ye, bala. Sən atana fikir vermə. O da səni çox istəyir. Bugün biraz işi çətin olub deyə əsəbidi. Sabaha hirsi keçər. – Başımdan öpərək eyvanı həyətdən ayıran kiçik taxta qapını açıb həyətin o başına, mətbəxə tərəf getdi.

Mən əlimdəki qaşığı boşqabda gəzdirərək olanları dərk etməyə çalışırdım. Yaşım artdıqca anlayırdım ki, heç ağlaya da bilmirəm. Eləcə sakit, dinməz donaraq qalıram. Bir də gülümsəyə bilirəm. Bundan başqa heç nə. Atama əsəbləşə bilmirdim. Onu da bacarmırdım. Bəlkə də o düz deyirdi. Mən burada olmamalı idim. Ancaq yəqin ki, bir səbəbi var idi. Bunu isə zamanla qismət olacaqdısa, görə biləcəkdim.

***

Səhər dan yeri yenicə ağaranda gözlərimi açaraq cəld yerimdən qalxdım. Səma aydınlanmaq üzrə idi. Ancaq məni heç kim oyatmamışdı. Əynimi geyinərək güzgünün özünə keçdim. Hər səhər güzgüyə baxmasam olmazdı. Orda məndən bir dənə də var. Mən nə edirəmsə, o da onu edir. Əlimi üzümdə gəzdirdim. Üzümdə qırmızı xətlər vardı. Balışın izləri idi. Gülümsəyərək əlimi keçəl başıma apardım. Ayda bir dəfə anam saçımı dibdən kəsirdi. Saçım olmayanda eybəcər görünürdüm. Öz-özümə baxır, gülürdüm. Birdən yadıma atam düşdü. Cəld otaqdan çıxaraq tövləyə tərəf qaçmağa başladım. Ancaq anamın səsi ilə duraraq geriyə dönüb ona baxdım.

– Hara gedirsən?

– Haaaaa... – əlimlə tövləni göstərdim.

– Atan çoxdan gedib. Sən günorta gedəcəksən onun yanına. Dedi ki, Bəşir qalsın, günorta yeməyimi gətirər. – Anam narahatlığımı sezmişdi ki, sakit danışaraq məni razı salmağa çalışırdı. – Gəl. Sən də yeməyini ye.

Asta addımlarla eyvana çıxaraq stola yaxınlaşdım. Stula əyləşib çaydan bir qurtum alaraq yeməyə başladım. Səhər yeməyini bitirdikdən sonra stuldan qalxıb anamın yanına getdim. Somavorı odlamaqla məşğul idi. Məni görüb əlindəki maşanı yerə qoydu.

– Yeməyini yedin?

– Ha.. – Gülümsəyərək qarşılıq verdim.

– Onda get biraz gəz. Günortaya yaxın gəlib atana yemək apararsan.

Anamın yanından ayrılaraq həyət qapısından küçəyə çıxdım. Hava aydınlaşmış, kənddə çoxdan canlanma başlamışdı. Aşağı düşərək kəndin mərkəzinə doğru addımlamağa başladım. Bizim Malavar kəndi elə də böyük bir kənd deyildi. Kəndin bir başından o biri başına tez vaxtda çatmaq mümkün idi. Üç tərəfi dağlarla əhatələnmiş bu kənd çay kənarında yerləşirdi. Dağıt çayının yay aylarında suyu azalsa da, payızın gəlməsi ilə o da coşub daşırdı. İndilərdə suyu yavaş-yavaş azalmağa başlamışdı belə. Kəndin mərkəzinə çatmağıma az qalmışdı. Dar dalandan keçərək torpaq yolla gedir, ara-sıra başımı qaldıraraq günəşə baxmağa çalışırdım. Hava həddindən artıq isti idi. Kəndin mərkəzinə çatıb Mehdinin kişinin dükanından sola döndüm. Mehdi kişi ilə göz-gözə gəlsək də, həmişəki kimi özünü görməməzliyə vurmuşdu. Gözümü açandan Mehdi kişini burda görmüşəm. Balaca dükanın içində bütün günü oturar, gəlib-gedənə bir şeylər satmaqdan çox onlarla söhbət edərdi. Balaca dükanın içindən bütün dünyanı görürdü. Hər yerdən məlumatı var idi. Arabir dükanın yanında oturar, onun dükana gələnlərlə söhbətlərinə qulaq asardım. Ancaq çox vaxt dükanın yanına belə yaxınlaşmağa qoymazdı məni. Uzun çənəsini qaşıya-qaşıya deyinər, sonra yenidən dükanına girib kiçik pəncərədən ətrafı seyr edərdi.

Dükanı keçərək uşaqların futbol oynadıqları meydançaya tərəf getdim. Çoxdan oyuna başlamışdılar. Onlardan bir qədər aralı, otun üstündə oturub onları izləməyə başladım. Uşaqlarsa topun arxasıyca düşərək gah o yana, gah da bu yana qaçır, topu rəqib qapıdan keçirməyə çalışırdılar. Birdən uşaqlardan biri topu zərblə vuraraq mən tərəfə atdı. Top başıma dəyərək məni yerə yıxmışdı. Başım ağrısa da, yerimdə qalxaraq uşaqlara gülümsədim.

– Ə sən öl, bu gicdi. Başına top dəyir, yenə də gülür. – Uşaqlardan biri məni göstərərək dedi.

– Dəlidi də. – Digər uşaq dedi. – Bəşir, topu at tez bura.

Qaçaraq ağacın dibindən topu götürüb onlara tərəf tutdum.

– At daaa. Tez ol! – Sarışın uşaq qabağa gələrək qışqırdı.

İki əlimlə topu onlara tərəf atdım. Uşaqlardan biri topu tutanda gülərək iki əlimi də bir-birinə vurdum. Ancaq onlar heç buna fikir də vermədilər. Geriyə dönüb yenidən öz oyunlarına davam etdilər. Mənsə yenə otun üstündə oturaraq onlara baxmağa davam etdim. İndiyə kimi heç vaxt futbol oynamamışdım. Bəlkə də bacarmazdım deyə məni oynatmırdılar. Heç mən də istəməmişdim.

Uşaqlar elə hey topun arxasıyca qaçırdılar. Mənsə artıq onlara baxmaqdan bezmişdim. Ayağa qalxaraq evin yolunu tutdum. Atamın yanına getməli idim. Anam elə demişdi. Yenidən Mehdi kişinin dükanına çatıb sağa döndüm. Dar dalandan

keçərək evə getdim. Həyət qapısını açdığımda anam çoxdan boxçanı hazırlamış, məni gözləyirdi.

– Elə vaxtında gəldin. Al bunu, apar atana. Yəqin o da səni gözləyir.

– Ha haa... – Gülümsəyərək boxçanı götürdüm.

Evin arxasına keçərək arxa qapıdan təpəyə qalxdım. Yeyin addımlarla atamın yanına doğru addımlamağa başladım. Qızmar günəşin altında təpəyə qalxmaq daha da çətin idi. Günəşin şüaları başımı yamanca yandırırdı. Arabir seyrək ağacların kölgəsində dayanır, nəfəsimi dərdikdən sonra yenidən yoluma davam edirdim. Bir qədər də getdikdən sonra uzaqdan sürünü güclə olsa da, gördüm. Sürətimi biraz da artıraraq atamın yanına çatmağa çalışdım. Bir neçə dəqiqə sonra artıq atamı da görürdüm. Ağacın dibində oturaraq sürüyə baxırdı. Ona yaxınlaşıb gülümsəyərək əlimdəki boxçanı ona uzatdım.

– Qoy qırağa. – Atam yer göstərib dedi. – Özünsə get qoyunları sür bu tərəfə. Dağılmasınlar.

Gülümsəyərək başımla “oldu” deyib sürüyə tərəf getdim. Atamın hirsi, deyəsən, soyumuşdu. Mənimlə əsəbi danışmırdı. Əlimə nazik ağac budağı alaraq qoyunları ehmalca dövrələyir, kənara dağılışmaması üçün əlimdən gələni edirdim. Onlar da məni başa düşürmüşcəsinə sakitcə bir yerdə dayanırdılar. Danışmadan bir-birimizi çox gözəl başa sala bilirdik. Bu məni güldürürdü. Qoyunları dövr edir, onların yunlarına toxunaraq öz-özümə oynayırdım ki, uzaqdan neçə nəfərin bizə tərəf yaxınlaşdığını gördüm. Yaxınlaşdıqca üzləri daha aydın sezilirdi. Gələnlər bu kəndlərin qız-gəlini idilər. Bellərinə bağladıqları şələlər bellərini əysə də, sürətlərini azaltmadan bizə tərəf gəlirdilər. Yaxınımıza çatıb salam verdikdən sonra çinar ağacının altına yüklərini qoyaraq hərəsi bir tərəfdə, otun üstündə oturdular. Yüklərinin bir küncünə bağladıqları boxçaları götürərək qabaqlarına qoymuş, günorta yeməyi üçün hazırlıq edirdilər. Onlardan biri isə qıraqda duraraq onlara qarışmır, qızlar neçə dəfə təklif etsələr də, boxçasında yemək olduğunu, ancaq yemək istəmədiyini deyirdi. O biri qızlara bildirmədən ağacların arxasıyca ona yaxınlaşaraq qabağında oturub üzünə baxdım. İri gözlərini mənə zilləyib dedi:

– Salam.

Başımla salamını alaraq gülümsədim. O da qarşılıq verərək gülümsədi. Uzun saçları vardı. Enli örpəyi başını tam örtsə də, bunu aydın sezmək olurdu. Gözlərini boxçasına zilləyərək fikrə dalır, arabir o biri qızlara baxaraq köks ötürürdü. Onu belə gördükdə boxçasını götürərək içindən onun üçün nəsə götürmək istədim. Ancaq boxçanın içində heç nə yox idi. Bir-birinə düyünlənmiş kəndirdən başqa. Hər şey anidən olduğundan qız çaşmış, mənim nə etdiyimi başa düşməmişdi. Gözlərini bərəldərək üzümə baxırdı. Boxçanı əlimdən almaq istəsə də, cəld ayağa qalxaraq atamın yanına qaçdım. Atam üçün gətirdiyim boxçanı açaraq qızın boxçasının içinə bir-iki şey qoyub yenidən onun yanına tələsdim. Qızsa, o biri qızların heç nə başa düşməməsi üçün sakitcə oturaraq məni izləyirdi. Ancaq qızlar məni görmüşdü. Boxçanı iki əlimlə açaraq ona uzatdım. Gülümsəyir, onun da gülməsini istəyirdim. Biraz aralı da oturan qızlardan biri olanlara sakit dayanmayaraq dilləndi.

– Gülpəri, uşağın əlindəkiləri al. Günahdır. Allaha da xoş gedər.

Adı Gülpəri idi. Gül... Pəri... Gülpəri o biri qızın sözlərini eşidib boxçanı əlimdən aldı. Deyəsən, heç kim heç nə başa düşməmişdi. Gülpəri isə üzümə baxır,

bir söz belə demirdi. Gözləri dolmuşdu. Elə bilirdim, biraz da ona baxsam, ağlayacaq. Ona görə də gülümsəyərək yerimdən qalxıb atamın yanına getdim. Atam yeməyə başlamışdı belə. Yanına oturaraq çörəyi götürüb ikiyə böldüm. İştahla yeməyə başladım. Gülpəriyə isə bir də baxmadım. Yalnız qızlar gedəndən bir qədər sonra, o da arxaları ilə.

Günəş batana kimi atamın yanında qalaraq ona kömək edir, sürünün bir başından girib, o biri başından çıxırdım. Atam da yanında qalmağıma bir söz deməmişdi. İcazə vermişdi. Bu məni sevindirirdi. Günəş öz sarı işığını bizdən gizlətdiyində sürünü aşağı, kəndə sürməyə başlamışdıq belə. Kəndin içinə doğru uzanan dar yolda çoban itlərinin hürüşməsi qoyunların mələşməsi ilə qarışaraq ətrafa yayılırdı. Mənsə gah sürünün sağına, gah da soluna keçərək onların dağılmasına imkan vermirdim. Bununla atama özümü göstərməyə çalışır, ara-sıra üzünə baxaraq gülümsəyirdim. O isə buna o qədər də fikir vermədən yoluna davam edirdi.

Sürünü ağıla saldıqdan sonra anam həmişəki kimi qoyunları sağıb quzuların öhdəsinə buraxırdı. Quzularda bir-birləri ilə dalaşa-dalaşa analarından süd əmməyə çalışırdılar. Onların bu halları məni güldürürdü. Əylənmək üçün onlara baxmaq kifayət idi.

İşlər bitib qurtardığında şam yeməyi üçün yenidən bir masanın ətrafına toplandıq. Atam sakitcə öz yeməyini yeyirdi. Anam isə ara-sıra mənə baxır, yeyib-yemədiyimə nəzarət edirdi. Mənim görmədiyimi zənn etsə də, mən bunu hiss edirdim. Ancaq o da bir söz belə demir, susurdu. Biz demək olar ki, həmişə yemək yeyərkən susardıq. Daha doğrusu, atamla anam. Atamın yemək yeyərkən danışılmasından xoşu gəlmirdi. Bunu mənə anam demişdi. Amma məncə atamın heç danışmaqdan xoşu gəlmir. Yalnız əsəbləşdiyində... o zaman biraz çox danışır. Mən danışa bilsəm, məncə boşboğaz biri olardım. O qədər danışılacaq şey varki. Ancaq bilmək olmaz. Danışmaq yaxşı olsa idi, mən belə olmazdım axı. Nə bilim.

Atam yeməyini bitirib yenidən öz otağına keçdi. Anam isə onun arxasıyca qalxaraq samovarın yanına gedib çay süzdü və atamın yanına apardı. Yenə masada tək qalmışdım. Çəngəli boşqabın içinə qoyaraq onlara qulaq asmağa başladım. Atamın mənim haqqımda nəsə deməsini... daha doğrusu, mənim haqqımda gözəl sözlər deməsini o qədər çox istəyirdim ki.

– Ay Həsən, Bəşiri niyə günorta geri göndərmədin? – Anam söhbəti açmışdı. Bütün fikrim onlarda idi.

– Nə bilim. Dedim qalsın. Mənə kömək etsin. – Atam qısaca cavab verdi.

– Bugün necə idi? Səhv etmədiki?

– Yox. Heç nə.

– Bəs sən niyə belə fikirlisən?

– Ay Zərifə, bilirsən nə oldu bugün? – Atam yumşaq səslə dedi.

– Noldu? – Anam narahatlıqla soruşdu.

– Bizim Allahverdinin qızı Gülpərini tanıyırsan da. Aşağı kəndə ərə vermişdilər.

– Hə, tanıyıram. Nə olub ki ona?

– Bugün neçə qız-gəlinlə dağdan, bellərində şələylə gəlib bizdən biraz aralı, çinar ağacının altında oturdular. Günorta yeməyi üçün. Ancaq Gülpəri onlardan

biraz aralı oturmuşdu. Həm də yemək də yemirdi. Mən fikir versəm də, heç nə demədim. Elə qoyunlara başım qarışmışdı ki, bir də gördüm Bəşir oturub qızın düz qabağında.

– Ay kişi, Bəşir yazıq ona heç nə eləməz.

– Bilirəm, – deyə atam anamı sakitləşdirməyə çalışdı. – Uzaqdan Bəşirlə Gülpərini izləyir, Bəşirə göz qoyurdum. Gülpəri boxçasını qabağına qoyub oturmuşdu. Birdən Bəşir onun boxçasını alaraq içini açdı. Yazıq qız əvvəlcə qorxdu. Bunu mən də gözləmirdim. Ancaq sonra Bəşir ayağa qalxaraq yanıma gəldi. Gətirdiyi boxçanın içini açaraq mənim üçün gətirdiklərindən götürüb Gülpərinin boxçasına qoydu. Yenə geri dönərək Gülpərinin yanına getdi. Boxçanı qıza uzadıb almasını istədi. O biri qızlarında deməsi ilə Gülpəri boxçanı götürdü. – Atam sözünü bitirib dərindən nəfəs aldı. – Bilirsən, maraqlısı nə idi?

– Nə idi, ay kişi? – Anam maraqla soruşdu.

– Bəşir Gülpərinin boxçasını gətirəndə gözucu boxçanın içinə baxdım. Gülpərinin boxçasının içində yemək yox idi. Bircə kəndir vardı.

– Yazıq qız. – Anam köks ötürdü. – Qaynanası başına oyun açır. Qız ərə gedəndən gün üzü görməyib.

– Gəlinin boxçasına yemək belə qoymayan insan... axx... necə insanlar var.

– Hə. Gəlin onun doğma gəlini olsa idi, belə etməzdi. Ögeydir. Gülpərinin ərinin rəhmətlik anasını yaxşı tanıyırdım. Gözəl qadın idi. O öldükdən sonra əri ikinci dəfə evləndi. O da nə övladlarına aman verdi, nə də onların gətirdiklərinə. – Anam bir qədər susduqdan sonra sözünə davam etdi. – Həsən, ancaq sən oğlun haqqında heç nə demədin. Bəşirin ürəyi təmizdir. Qəlbində pislikdən əsər-əlamət belə yoxdur. Sən ona bir addım getsən, o sənə qaça-qaça gələcək.

– Nə bilim, ay arvad. Bilmirəm bu uşaqla neyniyim. Allah məni çox böyük sınağa çəkir.

– Allah böyükdür. İstəsən hər şey yaxşı olar. – Anam ayağa qalxaraq otağı tərk etdi.

Mən cəld çəngəli götürüb yeməyə davam etdim. Anam isə mənə fikir vermədən həyətin o biri başına, samovarın yanına getdi.

Gülpəri haqqında düşünürdüm. Qaynanası niyə onu sevmirdi ki? Bəlkə o da atam kimi idi. Sevdiyini göstərmirdi. Heç bir təsəvvürüm yox idi. Təkcə onu anlamışdım ki, danışa bilməklə çox şey həll olunmurdu. Gözəl sözlər də demək lazımdır.

***

Səhər açılanda yenə eyni şeylə qarşılaşdım. Atam məni çağırmamışdı. Hirsinin soyuduğunu zənn etmişdim. Səhv bilmişəm. Yerimdən qalxaraq güzgünün önünə keçdim. Mən ona gülümsəyirdim, o da mənə. Saçlarım az da olsa, çıxmışdı. Dişlərim ağappaq idi. Üzümdə də nazik, sarı tüklər çıxmağa başlamışdı. Deyəsən, azca böyümüşdüm. Güzgünün qabağından ayrılıb əynimi geyindikdən sonra otaqdan çıxdım. Anam stolun üstünü çoxdan hazırlamışdı. Məni görüb samovardan çay süzərək stola gətirdi. Mənsə stula əyləşərək yeməyə başlamışdım belə.

– Sabahın xeyir. – Çayı qabağıma qoydu. – Sürünü bugün Davud aparıb. Atan isə aşağı kəndə getdi gün çıxmamış. Atın nallarını dəyişəcək. Ona görə səni çağırmadı. Rahatca yeməyini ye. Birazdan da bacıngil gələcək. Uşaqları da gətirəcəklər.

Anamın bu sözləri məni sevindirmişdi. Atam sürünü aparsaydı, deməli məni də aparacaqdı. Çaydan bir qurtum da alaraq cəld ayağa qalxıb həyət qapısına doğru qaçdım. Kəndə tələsirdim. Anam arxamca səslənsə də qapıdan çıxaraq aşağı doğru götürüldüm. Çaya gedirdim. Bacılarım uzun müddətdən sonra bizə gəlirdilər. Mənim dörd bacım var idi. Ən kiçik bacım belə məndən neçə il böyük idi. Dördü də evlənmiş, öz ailələrini qurmuşdular. Ən kiçik bacım uşağının iki yaşı var idi. Ən böyüyü isə məndən bir yaş balaca idi. Adı Murad. Onunla elə də yaxşı yola gedə bilmirdik. Ancaq yaxşı uşaq idi.

Çaya tələsirdim. Sizə bayaq da demişdim. Ən kiçik bacım uşağının iki yaşı var deyə. Adı Mələk. Ağappaq üzü vardı. Mənim kimi o da gülməyi sevirdi. Ancaq arada ağlıyırdı da. Onu ilk dəfə gördüyümdə əlimdə kiçik çay daşı vardı. Ona uzatdığımda alıb əlində oynatmış, gülümsəyərək xoşuna gəldiyini bildirmişdi. İndi də ona daş almaq üçün çaya tərəf qaçırdım. Bu səfər daşların ən gözəllərini seçəcəydim. Həyəcanlı idim. Çaya çatıb şalvarımın ətəyini qatlayaraq suya atladım. Suyun altından kiçik daşları çıxarır, ən gözəllərini seçərək cibimə yığırdım. Bir müddət suyun içində qaldıqdan sonra çıxıb otun üstündə oturdum. Artıq ciblərim tamamilə dolmuşdu. Yorulmuşdum. Daşlar ciblərimə ağırlıq verdiyindən ayağa qalxa bilmirdim. Bütün gücümü toplayıb evin yolunu tutdum. Hava yamanca isinmişdi. Gün başımı deşirdi. Kəndin mərkəzinə çatanda Mehdi kişinin dükanının bağlı olduğunu gördüm. Çaya gedərkən tələsdiyimdən buna heç fikir verməmişdim. Dar dalanla gedərək yuxarı, evə doğru qalxırdım ki, yaxınlarda it zingiltisi eşitdim. Ətrafa boylananda iki uşağın küçüyü çubuqla vurduğunu gördüm. Balaca it balası zingildəyərək onlardan qaçmağa çalışsa da bacarmır, boynunu qısaraq daşların arxasında gizlənməyə çalışırdı. Uşaqlar isə gülüşür, hərəsi birtərəfdən yazığı dövrəyə almışdılar. Onlar bəlkə də oyun oynayırdılar. Amma bunu küçüyü incidərək edirdilər. Cəld qaçaraq balaca it balasının yardımına qaçdım. Uşaqlardan birini kənara itəliyərək it balasını daşın arxasından çıxararaq qucağıma aldım. İtələdiyim uşaq yerə yıxılaraq ağlamağa başlamışdı. Bunu görən ikinci uşaq da ağlayır, qışqıraraq anasını çağırırdı. Mənsə çaşqınlıqla onlara baxır, onları susdurmağa çalışırdım. Onları ağlatmaq deyildi fikrim. Lakin əlimdən də bir şey gəlmədiyindən onları izləyirdim. Elə bu vaxt yan qapıdan Allahverdi əmi çıxdı. Uşaqların ağlamasını görüb yanımıza gəldi.

– Nə olub burda? Niyə ağlayırsan, a bala? – deyə uşağı ayağa qaldırdı.

– O vurdu. – Uşaq məni göstərərək onu qucaqlayıb ağlamağa başladı.

İti qabağa tutaraq onu vurduqlarını demək istəsəm də, deyəsən başa düşməmişdi ki, əsəblə üstümə atılaraq üzümə bir şillə ilişdirdi. Şillənin təsirindən yerə yıxılıb qaldım. İt balasını isə əlimdən buraxmır, ona da nəsə edəcəyindən qorxurdum.

– Əə küçük, uşaqlarla nə işin var? – deyə ikinci dəfə şilləni üzümə ilişdirdi. Üzümdə qəribə istilik hiss etsəm də, ağlamır, onun üzünə baxırdım. – Hələ buna bax! Utanıb başını aşağı salmaqdansa, üzümə baxır.

Üçüncü dəfə vurmaq istəyəndə atam anidən əlindən tutaraq onu saxladı. Onun gəldiyini ikimiz də görməmişdik. Allahverdi əminin məni döyməsindən çox, atamın mənə hirslənməyindən qorxurdum. Ona görə də cəld ayağa qalxaraq geri çəkildim. İt balasını isə yerə buraxdım.

– Uşağı niyə vurursan? – Allahverdi əminin üstünə qışqıraraq dedi.

– Görmürsən uşaqları? Neyniyibsə, yazıqlar hələ də ağlayırlar.

– Bəşir, elə uşaq deyil ki, körpələri döysün. Sən hardan bildin ki, o eliyib? Bəlkə bir-birləri oynayanda olub.

– Sən nə danışırsan? Uşaq özü dedi ki, bu vurub onu. – Əli ilə məni göstərdi. Mənsə, iti göstərərək atamı gözlərimlə başa salmağa çalışdım. – Sənə dağda sürünün yanında da dedim ki, bunu çölə buraxanda ehtiyatlı ol. Kimin başına nə oyun açacağı bəlli olmaz. Dəli şeydi.

Allahverdi əmi axırıncı sözü deyəndə atam yumruqla onu vurub yerə sərdi.

– Bəşir dəli zad deyil. Danışa bilmir deyə, günahının olduğunu da deyə bilməzsən. Mən onun heç kimə ziyan verməyəcəyinə inanıram. Sən öz nəvələrində günah axtar! – Atamı birinci dəfə idi ki, belə görürdüm. Əsəbdən gözləri qan çanağına dönmüşdü. – Yaşından utan, Allahverdi! Qüsurlu bir uşağa vurmaq nakişilikdir! – Əlimdən tutaraq məni atın yanına apardı. – Bir də bu uşağa əlinin qalxdığını görməyim. İnan Allaha, əlini kəsərəm!

Məni yəhərin üstünə qoyduqdan sonra özü də atın belinə qalxdı. Atın belinə necə təpiklə vurdusa, at dördnala götürüldü. Allahverdi əmi isə yerdə oturub qalmışdı. Bircə söz belə demirdi. Mən ilk dəfə idi ki, atamın məni sevdiyini düşünmüşdüm. Bunu düşünmək belə gözəl idi. Gülürdüm. Atama bildirməmək üçün səssizcə gülürdüm. Həyatımdaki ən gözəl gün idi. Atam məni qorumuşdu.

Həyət qapısına çatdığımızda atam olanlar haqqında anama heç nə bildirməməyi tapşırdı. Bir də buna görə pis olmasını istəmirdi. Mən də onun dediyi kimi etdim. Heç nə bildirmədim. Bacımgil artıq gəlmişdilər. Ancaq hamısı gəlməmişdi. Sadəcə iki bacım. Eyvana çıxaraq onların yanına getdim. Kiçik bacım məni görən kimi oturduğu döşəyçənin üstündən qalxdı.

– Salam, Bəşir. Necəsən? – Gülümsəyərək soruşdu və yanağımdan öpdü. Mən də eyniylə qarşılıq verdim.

Böyük bacım isə ayağa qalxmadan eləcə salamlaşdı. Onunla elə də yaxın deyildim. Mən onu ildə bir dəfə görərdim ya yox. Ən çox gördüyüm kiçik bacım idi. Onunla daha yaxşı idim. Kiçik bacımın uşağı yamanca böyümüşdü. Məni görüb qıçımdan tutaraq gülməyə başladı. Onu görəndə çaydan topladığım daşlar yadıma düşdü. Allahverdi əmi məni vuranda yerə yıxılmışdım. Hamsı, deyəsən, onda cibimdən düşmüşdü. İt balasını da orada qoymuşdum. İndi kim bilir, uşaqlar ona nə edirdilər. Mütləq onları götürməli idim. Elə bunu düşünürdüm ki, yan otaqdan böyük bacımın oğlu Murad çıxaraq yanıma gəldi.

– Salam, Bəşir. Nə var nə yox? – deyə əli ilə qoluma vurdu.

Mən də əlimi onun qoluna vuraraq qarşılıq verdim.

– Ə o, sənin dayındı ee. Bəşir nədi deyirsən? – Böyük bacım zarafatla Murada dedi.

– Yox bir. Belə dayı olar? – Əlini mənə tərəf tutaraq gülməyə başladı. Mən də gülümsəyərək ona baxdım.

Bu söz anamın xətrinə dəymişdi ki, qaşlarını çataraq böyük bacımla oğluna baxdı. Onlar da bunu hiss edib sakit durdular.Mənsə geriyə dönərək eyvandan düşüb evin arxasına tərəf getməyə başladım. Asta addımlarla getdiyimdən anamla bacımlarımın danışıqlarını eşidirdimdim.

– Oğluna tərbiyə ver. Danışığını heç bilmir.

– Ay ana, nə dediki? Zarafatdı da eliyir. – Böyük bacım dilləndi.

– Elə zarafat olmur, Səfurə. Heç sən özün də uşaqla durub görüşmədin. Sən nəsənki oğlun nə olsun!

– Eeee... guya nəsə başa düşürki? Sabaha yadından çıxacaq.

– Elə demə, bacı. O da hər şeyi yaxşı dərk edir. – Kiçik bacım söhbətə qoşuldu.

– Bəşiri hamı dəli bilir. Ancaq onun problemi danışa bilməməkdi.Buna görə də yazıq özünü heç kimə izah edə bilmir. Bacarmır. Hamı da üstünə düşür. – Anam dedi.

– Yaxşı. Sabah çıxıb gedəcəm onsuzda. Qaynanamgil xəbər göndərib. Bizi gözləyirlər. Sizdə canınızı qurtararsız məndən. Bir Bəşir gör nə dəyərli olub bunlara.

Onların söhbətinin sonrasını eşidə bilmədim. Artıq evi keçib arxa həyətə tərəf dönmüşdüm belə. Bacımın dediyində həqiqət var idi. Sabah hər şeyi unudacaqdım. Çünki heç kimlə küsülü qalmaq istəmirdim. Bacarmırdım. Mənim yaşım çox deyildi. Bəlkə buna görə də məni ciddi qəbul etmirdilər. Ağlımın qıt olduğunu zənn edirdilər. Ancaq onlara nə hiss etdiyimi deyə bilsəydim. Bircə danışa bilsəydim. O zaman hər şey tamamilə fərqli olardı. Çox fərqli olardı.

Səhəri gün həqiqətən böyük bacımın əri gəlib onları apardı. Kiçik bacım isə hələ bir neçə gün burada qalacaqdı. Atam bacıma görə sürünü yenə özü aparmamış, evdə qalmışdı. Ona görə də yerimdən duran kimi ilk işim daşların dalıyca getmək idi. Tələsdiyimdən heç güzgüyə belə baxmamış, əynimi geyinərək otaqdan çıxmışdım. Ancaq anamın təkidi ilə bir tikə də olsa, yemək yemişdim. Onu da tələsə-tələsə, güclə yeyə bilmişdim. Sonra isə daşların arxasıyca həyət qapısından çıxaraq aşağı doğru qaçmışdım.

Allahverdi əminin qapısının yanına çatanda sürətimi azaldaraq diqqətlə daşların olduğu yerə yaxınlaşdım. Ətrafı süzür, onun hardansa çıxacağından ehtiyyat edirdim. Ancaq heç kim yox idi. Nəvələri də görsənmirdi. Daşlar elə mən yıxılan yerdə idi. Cəld əyilərək hamısını tək-tək götürüb cibimə qoymağa başladım. Axırıncı daşı götürüb cibimə qoyanda ətrafa göz gəzdirərək balaca it balasını axtardım. Lakin yox idi. Dikələrək üst-başımı düzəltdim. Cəld geriyə dönərək evə qayıtmaq istəyirdim ki, kiməsə dəyib durdum. Əvvəlcə bunun Allahverdi əmi olduğunu zənn etsəm də, o deyildi. Səməndər idi. Mehdi kişinin oğlu.

– Hara tələsirsən belə, ay uşaq? – Əlini çiynimə qoyaraq dedi.

– Haaa... – Əlimlə evimizin yerləşdiyi tərəfi göstərdim.

– Tələsmə. Gəl biraz oturaq. Sonra gedərsən, – deyə məni qırağa çəkdi. Mənsə Allahverdi əminin qapısını göstərərək narahatlığımı bildirdim. – Qorxma! Dünən olanlardan xəbərim var. Allahverdi kişi indi evdə yoxdur. Aşağı kəndə gedib. Axşama gələr. – Bu sözündən sonra mən də daşın üstünə oturdum. – Çoxdandır səni görmürəm. Yaman böyümüsən. Neçə yaşın var indi? – İki əlimi də havaya qaldıraraq bütün barmaqlarımı açdım. Sonra bir əlimi aşağı salaraq digər əlimdə bir barmağımı qatlayaraq dörd barmağımı açıq saxladım. – Deməli, on dörd yaşın var. Ay

MaşaAllah. Yamanca kişi olmusanki. – Onun sözləri məni güldürdü. – Mən də dünən gəlmişəm. Moskvadan Bakıya, Bakıdan da bura. Əsgərlikdən.

Mehdi kişinin dükanının niyə açıq olmadığını indi başa düşmüşdüm. Səməndərin arxasıyca getmişdi. Əsgərdən gəlirdi. Səməndəri axırıncı dəfə iki il bundan qabaq görmüşdüm. Onda da mənimlə yaxşı davranardı. Ara-sıra dükandan konfet oğurlayıb mənə verərdi. Yaxşı oğlan idi.

– Allahverdi kişi, qocaldıqca xasiyyəti də pisləşib. Dünən sədrlə, kəndin girişindəki restoranda oturmuşdu. Onlar danışarkən eşitdim. Səni vurub. Atan da onu vurub. Düz eliyib! – Gülərək dedi. – Onunla işim çətin olacaq. Bir yolunu taparıq ancaq. Hə, Bəşir? – deyə mənə baxdı.

Səməndərin nə dediyini anlamamışdım. Gözlərindəki parıltının səbəbi mənə maraqlı gəlirdi. Allahverdi əmiylə onun nə işə ola bilərdi ki? Uzaqlara baxaraq fikrə dalmışdım ki, Səməndərin səsi məni fikirdən ayırdı.

– Yazmağı bacarırsan, Bəşir?

– Ha haaa... – Başımla təsdiqlədim. Yazıb oxumağı mənə anam öyrətmişdi. Anamın dediyinə görə onda hələ üç yaşım vardı.

– Lap yaxşı. Səninlə işimiz uzun olacaq. İndi isə gedə bilərsən. Mən də evə gedəcəm. – Sözünü bitirib ayağa qalxdı. Mən də ayağa qalxıb onun nə edəcəyini gözlədim. – Hələlik, Bəşir.

Mənimlə sağollaşıb aşağı, dar dalana tərəf getdi. Mənsə onun dediklərini fikirləşə-fikirləşə evin yolunu tutdum. Nə qədər də dediklərini anlamağa çalışsam da, bir yerə çıxa bilmirdim. Allahverdi əmiylə işini başa düşməmişdimsə, mənimlə nə işi olacağını heç qavraya bilmirdim. Sirr kimi bir anda gəlib keçmişdi Səməndər. İşin nə olduğunu isə yəqin ki, öyrənəcəkdim. İndi isə çay daşlarını Mələyə aparmağın vaxtı idi.

Həmin gün çay daşlarını Mələyə götürdüyümdə ilkində olduğu kimi sevinmişdi. Hamsını əlimdən alıb yerə qoymuş, sonra da onlarla oynamağa başlamışdı. Onu belə görmək məni də sevindirirdi. Üzündəki gülüş mənim də gülüşüm olmuşdu. Və məni sevindirən bir şey də var idi ki, atam sabah məni də özü ilə yuxarı aparacaqdı. Deyəsən, hər şey yoluna düşməyə başlayırdı.

Səhərin erkən saatlarında atamla bir yerdə sürünü yuxarıya çıxartdıq. Çoban itləri ilə sürünün hər tərəfini gəzir, sürünün dağılmaması üçün əlimizdən gələni edirdik. Atam isə atın belində, sürünün qabağında gedirdi. Təpəni aşaraq sürünün başını buraxdıq ki, rahatca gəzib ot yeyə bilsinlər. Atam isə atın yəhərini üstündən götürüb ağızlığını çıxardı. Ayağına bağladığı uzun kəndiri isə dəmir çubuqla yerə bərkitdi. Bundan sonra ağacın dibinə əyləşərək siqaretini yandırıb tüstüsünü ciyərlərinə çəkdi. Mənsə onun yaxınlığında bardaş quraraq onu izləyir, bir tapşırıq verər deyə hazır gözləyirdim. Ancaq o öz işində idi. Gözlərini qıyaraq gah uzaqlara dalır, gah da sürüyə nəzər yetirirdi. Sakit görünürdü. Əslində, çox vaxt belə olardı. Ancaq bugün onda başqa hal sezirdim. Heç bir söz demir, eləcə ağacın dibində qoyun dərisinə uzanaraq ətrafı izləyirdi.

Vaxt keçir, günəş başımızın üstünü almağa çalışırdı. Mənsə sürünün arasına girərək onları izləyir, astaca ətraflarında dolaşaraq necə otladıqlarını seyr edirdim. Bunu onlar da hiss edirdilər ki, arabir başlarını qaldıraraq təəccüblə üzümə baxıb mələyirdilər. Ancaq nə demək istədiklərini anlaya bilmirdim. Yəqin, onları

izləməyimi istəmirdilər. Çoban itləri isə ətrafımda qaçışır, sürüyə nəzarət etməklə yanaşı mənimlə oynamağa da vaxt tapırdılar. Burada özümü daha rahat hiss edirdim. Nə onlar mənə nəsə deyirdilər, nə də mən onlara. Bir-birimizi elə də başa düşə bilmirdik. Amma az da olsa, hiss edə bilirdik.

Sürünün içində gəzdiyim zaman atam çoxdan yerindən qalxmış, boxçanın içindəkiləri çıxararaq süfrənin üzərinə düzmüşdü. "Bəşir, gəl", – deyə səsləndiyi zaman tez yanına qaçaraq süfrənin bir küncündə, yerdə bardaş qurdum.

– Al, – deyə xiyarı iki yerə bölərək yarısını mənə uzatdı. Gülümsəyərək xiyarı alıb ağzıma atdım. – Yavaş ye. Tələsmə. Boğazında qalar. – Atamdan indiyə kimi belə sözlər eşitməmişdim. Qəribə olsa da, xoşuma gəlmişdi. – Hava da yaman istidi. Birazdan sürünü qaldıraq yuxarı. Orda ağaclıq daha çoxdur. Elə ordan da aşağı düşərik. Hə?

– Ha... haa... – Başımla sözünü təsdiqlədim.

– Dünən, günortadan sonra sürüyə baxmaq üçün Davudun yanına çıxanda Gülpərini gördüm. Səni soruşdu. Dedim, gəlmiyib. Sabah gələcək. Sənə də salam dedi. – Sözünü bitirib bir qədər düşündü. Sonra yenidən sözə başladı. – Axşam da Səməndəri gördüm. Bir xeyli səndən danışdıq. Səndən yaman xoşu gəlib. Elə hey səni tərifləyirdi.

Atamın Səməndərlə nə danışdığı mənə də maraqlı idi. Axı məndən nə danışa bilərlər? Elə bunu düşünürdüm ki, uzaqdan bir qaraltının bizə yaxınlaşdığını gördüm. Qaraltı yaxınlaşdıqca gələnin Səməndər olduğunu yəqinləşdirdim. Onun bu saatda burada nə işi var idi? Səməndər bizə çatıb əlini atama uzatdı.

– Salam, Həsən əmi. Necəsən?

– Sağ ol, bala. Şükür. Yaxşıyam. Sən necəsən?

– Yaxşıyam, əmi.

Atamla salamlaşdıqdan sonra əliylə başımı sığallayıb "Necəsən, kişi bala", – deyə mənimlə də görüşdü.

– Otur, bir tikə çörək ye.

– Sağ ol, Həsən əmi. Yemək yemişəm. Sizə nuş olsun.

– Çox sağ ol, bala. – Atam təşəkkürünü bildirdi. – Hə de görək, bu saatda burda neynirsən. Hava yaman istidi. Başına gün vurub eliyər.

– Düz deyirsən, Həsən əmi. Bir isti var ki, düşmən ondan yaxşıdır. – Əli ilə günəşə işarə elədi. – Ancaq vacib işim olduğundan bura gələsi oldum.

– Nə işidir o elə?

– Yadındadırsa, dünən sənlə danışmışdım. Sən də demişdin ki, fikirləşərəm. Ona görə gəlmişəm, Həsən əmi.

– Yaman səbrsiz adammışsan ki, – deyə atam gülməyə başladı. – Bala, dünən də sənə dedim ki, bu iş elə də rahat iş deyil. Hələ o dəfə olanlardan sonra lap çətindir.

– Başa düşürəm, Həsən əmi. – Səməndər təəssüflə başını buladı. – Bəs ikinci istəyim vardı səndən. Ona nə deyirsən? İcazə verirsən Bəşir mənə kömək eləsin?

Onların nə haqqında danışdıqlarını bilmirdim. Eləcə onları dinləyirdim.

– Bax ona heç nə deyə bilmərəm. O, Bəşir, bu da sən. Əgər razıdırsa, hara istəyirsən apar. – Məni göstərdi.

– Hə, Bəşir. Nə deyirsən? Mənə kömək etmək istəyirsən? – Sual dolu baxışlarla mənə baxdı. Mənsə nə edəcəyimi bilmirdim. Gah atama, gah da ona baxır, atamın nəsə deməsini gözləyirdim.

– Get, Bəşir. Mən onunla getməyini razıyam. – Atam dedi.

– Dur. Gedək. Mən sənə hər şeyi izah edəcəm.

Səməndər əlimdən tutaraq məni ayağa qaldırdı. Sakitcə onun yanı ilə cığır yolla kəndin yolunu tutduq. Məni hara apardığından xəbərim yox idi. Bilmirdim, mənlə nə edəcək. Ancaq ürəyim niyəsə, çox rahat idi. Heç nə düşünmürdüm, heç nə fikirləşmirdim, öz-özümə suallar belə vermirdim, öz-özümlə danışmırdım da. Sakitcə Səməndərin böyrünə düşüb kəndə gedirdim.

Kəndin mərkəzinə çatdığımızda Qədir əminin arvadı Fatma xala çıxdı qabağımıza. Səməndəri görən kimi əlindəki süpürgəni bir kənara qoyub gülərüz halda dedi:

– Salam, Səməndər. Eşitdim artıq məktublarımızı sən gətirəcəksən?

– Salam, Fatma xala. İnşaAllah hə.

– İnşaAllah, bala. Oğlum Qəzənfərdən yaxşı xəbərlər gətir mənə. Gözüm neçə vaxtdır, yoldadır. Köpək uşağı bir məktub da yazmır.

– Narahat olma, Fatma xala. Mən də əsgər olmuşam. Məktub ordan-bura çox da rahat gəlmir axı.

– Ehh... bala. Sən deyən olsun. – Üzündəki sevinc yerini kədərə verdi.

– Ancaq narahat olma. Məktub gələn kimi sənə xəbər edəcəm. – Səməndər onun könlünü almağa çalışdı.

– Sağ ol, bala. Allah səndən razı olsun. – Yenidən üzündə təbəssüm yarandı. Bayaqdan Səməndərlə danışdığından mənə heç də fikir vermirdi. Birdən gözü mənə sataşdı. Üzünü turşudaraq Səməndərə baxdı. – Bu gədəni hara aparırsan?

– Özümə köməkçi götürmüşəm. Mənə kömək edəcək.

– Nə? – Gözlərini bərəldərək dedi. – Bundan adama heç köməkçi olar?

– Elə niyə deyirsən, Fatma xala? Nə olub Bəşirə? Sakit, ağıllı uşaqdı, – deyə mənə baxdı. Səməndərin kefi pozulmuşdu.

– Sən bilərsən. Ancaq elə et ki, məktubum mənə sağ-salamat çatsın.

– Oldu.

Səməndər Fatma xalayla olan söhbətini bitirib yoluna davam etdi. Mənsə gülümsəyərək Fatma xalayla sağollaşdıqdan sonra Səməndərin arxasıyca getməyə başladım. Fatma xala isə buna o qədər də əhəmiyyət vermədi. Süpürgəni götürüb yenə öz işinə davam etdi.

Mərkəzdən keçərək kəndin aşağısına doğru gedirdik. Səməndər fikirli görünürdü. Elə hey öz-özünə nəsə deyir, kiminsə qarasına söyürdü. Mən o qədər ağıllı biri deyildim. Ancaq həqiqətən sakit idim. Ona görə də ancaq ona baxır, bir söz deməyini gözləyirdim.

– Onun elə deməyindən pis olma! Əslində, heç kimə fikir vermə! Kim nə deyir, desin. Başqalarının sənin haqqında düşündükləri deyil, sənin özün haqqında nə düşündüyün önəmlidir. – Duraraq mənə tərəf çevrildi. – Mən sənin çox ağıllı olduğuna inanıram, bunu bilirəm də. – Əsəbləşdiyi gözlərindən hiss olunurdu. – Başa düşürsən mən nə demək istəyirəm? – Gözlərini üzümə zilləmişdi. Mənsə

təbbəssümlə ona baxırdım. – Deməli, hə. O zaman yola davam. Çox işimiz var. – Gülərək qolumdan yavaşca vurdu.

Yenidən yola düzəlmişdik. Bir qədər də getdikdən sonra idarənin qabağına çatdıq. Səməndər idarənin həyət qapısından içəri keçərək məni də çağırdı. Pilləkənlə yuxarı qalxaraq idarəyə daxil olduq. Kənd sovetinin katibi bizi görüb oturduğu yerdən dedi:

– Nə gec gəldin?

– Xanım  Qəniyeva, Bəşirin arxasıyca getmişdim. – Əli ilə məni göstərdi. – Ona görə biraz gec gələsi oldum.

– Lap yaxşı. Məktublar ordadır. Bir neçə sənəd də var. Bugün onların hamısı yerlərinə çatmalıdır.

Xanım Qəniyevanı əvvəllər də bir neçə dəfə görmüşdüm. Onu işləmək üçün bizim kəndə Bakıdan göndərmişdilər. Yaşı elə də çox deyildi. Buna baxmayaraq, çox ciddi görkəmi vardı. Elə indi olduğu kimi, sərt baxışlarla baxardı.

– Yoldaş Muxtarov hardadır, – deyə Səməndər kənd sovetini soruşdu.

– Rayona gedib. Bugün olmayacaq.

– Başa düşdüm. – Otağın aşağı küncündəki masaya yaxınlaşıb üstündəki məktubları götürdü. – Bəşir gəl bura, – deyə məni çağırdı.

Səməndərin yanına gedərək nə etdiyinə tamaşa etməyə başladım. Məktubları bir-bir götürüb üzərinə yazılanları oxuduqdan sonra masanın altından götürdüyü kiçik çantaya yığırdı.  Məktublar bitdikdən sonra sənədləri də qovluğa qoyaraq mənə baxdı.

– Hə, Bəşir. Getmək vaxtıdır. – Əli ilə qapını göstərib qapıya yaxınlaşdı. – Xudahafiz, xanım Qəniyeva, – deyə qapıdan çıxanda xanım Qəniyevayla sağolllaşdı.

– Sağ ol, Səməndər. – Xanım Qənıyeva eynəyini düzəldərək ikimizə baxdı.

Pilləkənlərdən həyətə düşərək küçəyə açılan taxta qapıdan çölə çıxdıq. İkimiz də ara yollarla kəndin mərkəzinə doğru asta addımlarla gedir, arabir gördüyümüz adamlarla salamlaşıb yolumuza davam edirdik.

– Kəndə gəldiyim günün səhəri atam Qabil əminin qocaldığına görə işdən çıxdığını və yerinə birini axtardıqlarını demişdi. Mən də elə həmin gün yoldaş Muxtarovla danışıb işi qəbul etmişdim. Artıq Qabil əminin yerinə poçtalyon mən olacaqdım. Ancaq bir iş vardı ki, Qabil əmi bizim kənddən başqa heç bir kəndə getmirdi. Qoca olduğuna görə, bir söz də demirdilər. Mən isə başqa kəndlərə də getməliydim. Yoldaş Muxtarov özümə bir də köməkçi götürə biləcəyimi demişdi. Səni köməkçi olaraq götürməyi çox da fikirləşmədim. Bu işi bacaracağına tam əminəm. – Səməndər danışdığı zaman onu dinləyir, hər şeyi aydın şəkildə anlamağa çalışırdım. – Məktubları sənə özüm verəcəm. Hər gün. İdarəyə gəlib götürəcəksən. Sonra da üzərində adları yazılan adamlara aparıb verəcəksən. Malavar kəndini çox gözəl tanıyırsan. Narahat olma haa... bunun üçün sənə pul da verəcəm. Havayı işləməyəcəksən. O pulla da özünə nə istəsən alarsan. – Gülərək üzümə baxdı. Mən də eyni ilə qarşılıq verdim. – Hər şey aydındır?

– Haa... haa... – Başımla təsdiqlədim.

– İndi gəl, bir neçə məktubu bir yerdə verək. Görək necə alınır.

Səməndərin dedikləri məni həyəcanlandırsa da, bir yandan qorxudurdu. Bacara bilməsəydim, o da pis olacaqdı. Mənə görə yoldaş Muxtarovdan söz eşitməsini istəmirdim.

Kəndin mərkəzinə çataçatda Səməndər taxta qapılardan birini döyərək içərdəkiləri çağırdı. Qapıya dəllək Xudu çıxdı.

– Salam, Səməndər.

– Salam, Xudu qardaş. Sənə məktub gəlib. Bakıdandır.

– Ay nə yaxşı oldu. Elə məndə nə vaxtdandır, ordan xəbər gözləyirəm.

– Onda buyur, bu da məktubun.

– Çox sağ ol. – Dəllək Xudu məktubu alaraq içəri girdi.

Səməndərlə bir neçə saat ərzində bir çox evi gəzərək bütün məktubları paylamışdıq. Daha doğrusu, bunu Səməndər etmiş və bu işin necə edildiyini mənə göstərmişdi. Həmişə olduğu kimi, məktubu alanlar mənə fikir belə verməmişdilər.

– Hə. Başa düşdün, nə etmək lazımdır? – Səməndər son dəfə məndən soruşdu.

– Hhaa...

– Onda al bu çantanı. Artıq sənindir. İçində kiçik kitabça da var. İstədiyin qeydləri apararsan. – Çantanı mənə uzadıb dedi.

Çantanı alaraq içinə baxdım. Dediyi kimi, içində kitabça da vardı. Çantanın qulpundan yapışaraq mənə necə yaraşacağını yoxladım. Yanımda elə də pis durmurdu. Gülərək sevincimi bildirdim. Bunu görən Səməndər də gülməyə başladı. İşi bəyənməyim onun da xoşuna gəlmişdi. Arıtq poçtalyon idim. Malavar kəndinin poçtalyonu Dəli Bəşir.

– İndi isə evə get. Sabah səhər mütləq idarədə ol. – Səməndər əlini çiynimə yavaşca vuraraq dedi. Onun yanından ayrılaraq evə getdim.

O gün həyəcanla səhərin açılmasını gözləmişdim. Çantamı birinci anam görmüşdü. Nə olduğunu başa düşmədiyindən içindən kitabçanı çıxararaq qələmlə içinə “Poçtalyon oldum”, – deyə yazıb ona göstərmişdim. Əvvəl heç nə anlamasa da, sonradan atam ona hər şeyi izah etmişdi. Ağlayaraq qucaqlamışdı məni. Məktəbə belə gedə bilməyən oğlu Poçtalyon olmuşdu. Atam isə sakitcə danışıb nə edəcəyimi bir də izah etmişdi mənə. Heç nəyi biruzə verməsə də, sevindiyi gözlərindən bəlli olurdu. Bəlkə də indiyə kimi ən gözəl günüm idi. Atam, anam və bacımla bir yerdə oturaraq, işimdən danışırdıq və mənim hələ on dörd yaşım vardı.

***

Səhər tezdən yerimdən qalxaraq əynimi geyinib aynanın önünə keçdim. Gülürdüm. O da həmişə olduğu kimi qarşılıq verirdi. İkimiz də halımızdan razı idik. Aynanın qarşısında bir qədər də özümə baxdıqdan sonra otaqdan çıxdım. Anam süfrəni çoxdan hazırlamışdı. Bacım Mələyin yeməyini verirdi. Mən də bir tikə yedikdən sonra sağollaşaraq idarəyə getmək üçün tələsdim. Həyəcanlı idim. Bugün mənim ilk iş günüm idi. İlk dəfə özüm tək başına nəsə edəcəkdim. Bir şeylər qazanacaqdım.

Kəndin mərkəzindən keçəndə Mehdi kişiylə göz-gözə gəldik. Bu səfər o belə gözlərini məndən qaçırmamışdı. Bugün çox fərqli bir gün idi. Gülümsəyərək aşağı ,

idarəyə tərəf getdim. İdarəyə çataçatda isə ürəyim şiddətlə döyünməyə başladı. Sanki yerindən çıxacaqdı. Ancaq Səməndəri görəndə bütün həyəcanım da bir anda yox oldu. Mənimlə salamlaşdıqdan sonra məktubları tək-tək göstərib hamısını çantama qoydu. Artıq işə başlamağın vaxtı idi. Onun yanından ayrılaraq məktubları paylamaq üçün kəndin içinə girdim.

Hər qapını döydükdə içəridən çıxanın məni necə qarşılayacağı haqqında düşüncələr başımı ağrıdır, qəlbimi çıxılmaz yollar içində buraxırdı. Məktub sahibləri isə həqiqətən mənim poçtalyon olmağıma təccüblə baxırdılar. Dəli Bəşir Poçtalyon Bəşir olmuşdu, onlara görə. Mənsə təbəssümlə onlara məktublarını verir, öz yoluma davam edirdim. Ancaq ara-sıra xoşüzlü insanlar da olurdu, məktub almaq üçün qapını döydüyümdə. Mənə gətirdiyim məktub üçün şirinlik belə verirdilər. Bəzən də mənim niyə məktubu gətirdiyimi başa düşməyənlər də olurdu. Ona görə də çantadan kitabçanı çıxararaq qeydlər aparır, poçtalyonun mən olduğumu onlara bildirirdim. Xülasə, artıq Malavar kəndinin Poçtalyonu Dəli Bəşir, yəni mən idim.

***

Vaxt ötür, günlər keçir, zaman durmadan öz atını irəliyə doğru çapırdı. Mən bütün kəndin dilinə düşmüş, artıq məhşur belə olmuşdum. Hər gün, səhər tezdən idarəyə gedər, məktubları alaraq öz sahiblərinə çatdırardım. Fatma xala belə artıq mənimlə yaxşı davranardı. Axı oğlundan ona məktubları mən gətirərdim. Hər məktub gətirdiyimdə mənə şirinlik verər, gülərüzlülüklə yola salardı. İndi o qədər də mənə dəli deyən yox idi. Artıq Poçtalyon Bəşir idim. Amma uşaqlar ara-sıra Poçtalyon Dəli Bəşir deyə başıma toplaşar, gülərək mənimlə "zarafat" edərdilər.

İlk həftənin sonunda Səməndər həftəlik maaşımı vermişdi. O gün ən xoşbəxt günüm idi. Qaçaraq evə getmişdim. Anamla atamın qabağına bir neçə kağız parçasını qoyaraq maaş aldığımı bildirmişdim. Anam ağlayaraq qucaqlamışdı məni. Atam... o isə bu səfər sakit durmamış, əli ilə başımı sığallayaraq "Bu pullar sənin haqqındır, nə istəsən gedib ala bilərsən" demişdi. İndi onlar da mənimlə az da olsa, bəlkə də fəxr edirdilər. Bu isə mənim üçün hər şey demək idi.

Yayın sonlarına doğru gedirdik. Mən yenə də hər gün idarəyə gedib-gəlirdim. Artıq kitabçamda qeydlər aparmır, bir çox gördüyüm şeyləri də ora yazırdım. Həyat öz axarı ilə davam edirdi. Daha doğrusu, mənə elə gəlirdi.

Günlərin bir günü bütün məktubları payladıqdan sonra evin yolunu tutmuşdum ki, Səməndərin Allahverdi əminin qapısının yaxınlığında oturduğunu gördüm. O da məni görmüşdü ki, əli ilə məni yanına çağırdı. Yanına gedib başımla salam verdikdən sonra yanında oturdum. Yenə heç nə demədən uzaqlara baxmağa davam edirdi. Kitabçamı çıxararaq içinə yazı yazıb ona uzatdım.

– Burda niyə oturmusan? – deyə yazmışdım.

– Heç. Elə-belə – Təbəssümlə üzümə baxdı.

– Bəs niyə bikefsən? – Yenidən kitabçaya yazıb ona göstərdim.

– Nə bilim... boş şeydi. Fikir vermə. – Dərindən nəfəs alıb Allahverdi əminin evinə tərəf baxdı.

Artıq mən də heç nə yazmadım. Danışmaq istəmirdisə, məcbur etməyin də bir mənası yox idi. İkimiz də susaraq oturduğumuz yerdə qalmışdıq. Nə o, yerindən tərpənirdi, nə də mən.

Bir xeyli daşın üzərində səssizcə oturduqdan sonra Səməndər dərindən nəfəs alaraq mənə baxdı. Deyəsən, nəsə demək istəyirdi.

– Bilirsən, səni niyə poçtalyon etdim? – Səməndərin sualına başımla “yox” deyə cavab verdim. – Malavar kəndinin camaatı səni bəlkə də heç vaxt ciddiyə almayacaqdı. Savadsız insanlardır, anlaya bilmirlər. Ancaq sənin elə olmadığın gözlərindən hiss olunurdu. – Səməndər “dəli” sözünü işlətmək istəmədi. – Və insanların sənə  nə deməyindən asılı olmayaraq bir şeylərə cəhd edirdin. Həmişə. Həm də bu yaşında. Poçtalyon işini istəməyə də bilərdin. Amma cəsarətinin sayəsində insanlara özünü sübut etdirdin. Mən bunun olacağına elə ilk vaxtlardan əmin idim. Səndəki cəsarət çox adamda yoxdur. Elə mənim özümdə də. – Köks ötürərək yenidən Allahverdi əminin evinə tərəf baxdı. – Məndəki cəsarətlə ancaq elə uzaqdan baxmaq olar. Yaxınlaşa bilmərəm. Bacarmaram. Məndə bu alınmaz, Bəşir.

Səməndərin nə demək istədiyini azca olsa da, başa düşmüşdüm. Allahverdi əminin Gülpəridən başqa bir qızı, bir oğlu da vardı. Oğlunun adı Şahsuvar idi. Enlikürək, hündürboy, üzdən nə qədər göyçək olsa da, qəlbən bir o qədər eybəcər idi. İşi, gücü bütün günü veyl-veyl gəzmək, yerli-yersiz onla-bunla dava etmək idi. Bir neçə il bundan əvvəl Allahverdi əmi zorla da olsa, onu evləndirə bilmiş, iki uşağı da olmuşdu. Ancaq yenə də əvvəlki xasiyyəti dəyişməmişdi. Bircə atasının sözündən çıxmazdı. Atası nə desə, onu yerinə yetirərdi. Allahverdi əminin o biri qızının adı isə Nazlı idi. Şahsuvarın qorxusundan bütün günü evdə olar, ara-sıra bir neçə qızla bulağa su gətirməyə gedərdi. Məktəbi belə tam oxuya bilməmişdi. Gülpəri nə qədər gözəl idisə, Nazlı da bir o qədər gözəl idi. Deyəsən, Səməndərin dərdi Nazlı olmuşdu. Ona görə belə bikef, fikirli görsənirdi.

Səməndər elə Allahverdi əminin evinə tərəf baxırdı. Bu arada mənim ağlıma bir fikir gəlmişdi ki, kitabçaya bir şeylər yazaraq Səməndərə uzatdım. Əvvəl nə etdiyimi anlamasa da, kitabçada yazılanları oxuduqdan sonra gülümsəyərək dedi:

– Doğurdan? Bunu edə bilərsən? – Gözləri parıldayırdı.

– Haa...

– Ancaq bu təhlükəlidir. Səni tutsalar həm sənə, həm də ona yazıq olacaq. Onsuzda Allahverdi əmi bir dəfə səni danlayıb. Bir dəfə də mənə görə danlanmanı istəmərəm.

– Narahat olma, – deyə kitabçaya yazıb ona göstərdim.

– Onda yaxşı. Mən sənə xəbər edəcəm. – Ayağa qalxdı. Artıq üzü gülürdü. Deyəsən, ümid yaranmışdı.

Mən də ayağa qalxaraq onunla sağollaşıb evin yolunu tutdum. Səhər ikimiz üçün də böyük gün olacaqdı.

***

Səhər idarəyə gedərək həmişəki kimi, Səməndərlə görüşdüm. Bütün məktubları çantaya qoyduqdan sonra danışdığımız kimi onun yanından ayrıldım. İlk

işim bulağa getmək idi. Onu orada görəcəyimə əmin idim. Kimsəyə görünməmək üçün kəndin aşağısı ilə gedirdim. Ara-sıra bir neçə adamla qarşılaşsam da sakitcə yanlarından keçirdim, onsuzda onlarda mənə elə fikir vermirdilər. Bulağın yaxınlığına çatanda iri çinar ağacının arxasına keçərək onun gəlməsini gözləməyə başladım. Saniyələr dəqiqələrə, dəqiqələr saatlara doğru sürətlə qaçsa da, o görsənmirdi. Hər gəlib-keçən qızın üzündə onu axtarır, hər səsdə bir ümidlə ağacın arxasından bulağa doğru boylanırdım. Ancaq ondan bir xəbər yox idi.

Vaxt keçirdi. Hələ məktubları paylamalı idim. Ona görə də gözləməyi buraxıb yenidən kəndə qayıtmaq üçün çinar ağacının arxasından çıxdım. Asta addımlarla kəndin içinə doğru uzanan yolla gedir, tez-tez arxaya çevrilərək onun görünüb-görünmədiyinə baxırdım. Yox idi. Bir qədər də getdikdən sonra təpənin üstünə çatdım. Geriyə dönərək son ümidlə bulaq tərəfə baxdım. Görünmürdü. Artıq ümidimi tamamilə itirmişdim. Əlimi gözlərimin üstünə qoyaraq diqqətlə bulağa gedən yola son dəfə baxıb geriyə döndüm. Elə yenicə dönmüşdüm ki, bir neçə qızın mənə tərəf gəldiyini gördüm. İçlərində o da var idi. Sən demə, o biri yolla deyil, bu yolla gəlirmiş bulağa. Onu gördüyüm an sevincimin həddi-hüdudu yox idi. Yerimdə atılıb-düşməmək üçün özümü güclə saxlayırdım. Elə hey gülürdüm, ancaq onların bunu görməməsi üçün üzümü onlara tərəf çevirdim. Məktubu necə verəcəyim haqqında düşünmədiyimdən onlar yanımdan ötüb keçəndə sadəcə onlara baxmış, bir çıxış yolu tapa bilməmişdim.

Qızların arxasıyca gedərək bulağa çatmalarını gözlədim. Biraz aralı, buralığın arxa tərəfinə keçərək Nazlının məni görməsi üçün diqqətlə ona baxmağa başladım. Bir neçə saniyə sonra o da məni görmüşdü ki, iri, qara gözlərini mənə zilləyərək təəccüblə əlimdə tutduğum məktubə baxdı. O biri qızların görməməsi üçün məktubu ehtiyyatla ona göstərir, məktubun onun üçün olduğunu izah etməyə çalışırdım. Amma nə o, mənə tərəf gələ bilirdi, nə də mən ona yaxınlaşa bilirdim. Buna görə də, məktubu ona göstərə-göstərə yaxınımda olan küknar ağacının arxasına qoyub yavaşca oradan bir qədər uzaqlaşdım. İnanırdım ki, Nazlı onu gəlib oradan götürəcək. Bir qədər də keçmişdi ki, Nazlı yanındakı qızlara nəsə deyib küknar ağacına tərəf getdi. Ağacın arxa tərəfinə keçib məktubu oradan götürdü. Bunu gördüyüm an şaqqanaq çəkərək gülməyə başladım. Məktubu ona verə bilmişdim. Geriyə baxmadan Səməndərin yanına qaçmağa başladım. Hər şey mənim gözümdə bir başqa gözəl görsənirdi. Palçıqdan yollar, daşdan evlər, günəşin yandırıcı şüaları, kəndin mərkəzindəki uşaqların məni görüb "dəli yenə qaçır" demələri belə mənim üçün bir başqa gözəl idi. Səməndərin yanına tələsirdim. Mərkəzdən keçərək idarəyə tərəf götürüldüm. Onu orada tapa biləcəyimdən əmin idim. İdarəyə çatıb qapını açaraq pilləkənlərlə yuxarı qalxdım. Səməndər yeni gəlmiş məktubları yerbəyer edirdi. Məni görüb cəld ayağa qalxdı. "Noldu?" – deyə həyəcanla başını yellədi. Gülərək çırtma çalıb oynamağa başladım. Bunu görüb məktubu verdiyimi başa düşdü ki, o da əl çalaraq mənimlə oynamağa başladı. İkimizdə idarənin otağında atılıb-düşür, sevincimizi bölüşürdük. Səməndərə xəbəri bildirmək istədiyimdən xanım Qəniyevanı belə görməmişdim. Səməndər belə sevincindən onu yadından çıxarmışdı. Xanım Qəniyeva isə öz masasının arxasında bizi izləyirdi. Anidən ikimizə də qışqıraraq sevincimizi böldü.

– Neynirsiz?

– Xanım Qəniyeva... – Səməndər özünü yığışdıraraq ona baxdı.

– Nə xanım Qəniyeva! Bura idarədir. Özünüzü yığışdırın. Mağara döndərmisiniz buranı. – Ayağa qalxdı. – Sən də çıx çölə. – Üstümə qışqıraraq dedi.

– Bağışlayın. Bir xəbər gözləyirdim. Ona görə... ancaq Bəşirin günahı yoxdu. Ona heç nə deməyin. Günahkar mənəm. – Səməndər məni arxasına tərəf dartdı.

– Sevinməyin də yeri var. Bura həmin yer deyil. İkiniz də indi çıxın.

– Oldu, xanım Qəniyeva.

İkimiz də arxaya dönərək idarənin otağını tərk etdik. Asta addımlarla pilləkəndən həyətə endik. Səməndər məni çölə çıxardıb yavaşca dedi:

– Qorxma! Xanım Qəniyeva yaxşı insandır. Kinli biri deyil. – Əlini çiynimə qoydu. Mənsə ona baxaraq gülməyə başladım. – Hə, de görək. Məktubu aldı? – Gülərək göz vurdu.

– Haa... – Yenidən gülməyə başladım.

İdarənin qabağında yenidən çırtma çalaraq oynamağa başladıq. Səməndəri birinci dəfə belə şən görürdüm. Necə də şən olmasın axı. Gülür, oynayır, sevincini bildirirdi. Elə mən də.

Bu birazda davam etdikdən sonra məktubları paylamaq üçün onun yanından ayrıldım. Hava qaralmamış məktubları sahiblərinə çatdırmalı idim. Bir saatın içində bütün məktubları payladım. Çox yorulmuşdum. Ona görə də evin yolunu tutdum.

***

Ertəsi gün həmişəki kimi, idarəyə gedib məktubları aldıqdan sonra onları sahiblərinə paylamaq üçün düşdüm kəndin küçələrinə. Bir-bir qapıları döyür, məktubları sahiblərinə verirdim. Artıq hər kəs mənim Poçtalyon olmağımı qəbul etmişdi. Fatma xala isə məni hər görəndə oğlundan məktub olub-olmadığını soruşardı, olmadığını deyəndə isə “can bala, ehtiyatlı ol. Məktubu itirib eləmə” deyərdi. Qəribə qadın idi.

Günortaya kimi demək olar, məktubların çoxunu paylamışdım. Çantama qoyduğum xiyar, pomidor, pendiri çıxararaq bir ağacında dibində oturdum. Təndir çörəyini iki yerə bölərək arasına pendiri qoyub gətirdiyim xiyar, pomidorla bir yerdə yeməyə başladım. Yay aylarında bunlardan yaxşısı yox idi. Yeməyimi yedikdən sonra ayağa qalxaraq səmaya, göz üzünə baxdım. Hava çox isti idi. Əlimi başımda gəzdirərək qalan məktubları fikirləşdim. Sonra isə ağacların arası ilə işimi qurtarmaq üçün yeyin addımlarla kəndin yuxarısına doğru qalxdım. Cəmi dörd məktub qalmışdı. Akif əminin evlərinə çatıb qapını döydüm. Qapını gəlini açdı.

– Salam, Bəşir. Məktub gətirmisən?

– Haaa... – Çantadan məktubu çıxarıb ona uzatdım.

– Rəsuldandır. – Məktubun üzünə baxdı və gülümsəyərək dedi. – Çox sağ ol, Bəşir, – deyə qapıdan içəri girdi.

Mən də geri dönərək o biri məktubları paylamağa getdim. Məktubların ikisi Yusifgilə idi. Biri isə Şəlalə bibigilə. Onları da verdikdən sonra Səməndərin dediyi kimi kəndin yuxarısına çıxaraq qəbristanlığa gedən yolla bulağa tərəf asta addımlara getməyə başladım. Tələsmirdim. Dünənki saatda orada olmalı idim.

Mən bulağın yanına çatanda bir neçə qız-gəlindən başqa kimsə yox idi. Onlara bildirmədən küknar ağacına yaxınlaşıb arxa tərəfinə göz gəzdirdim. Otların arasına gizlədilmiş kağız parçasını görəndə gülmək istəsəm də bulaq başındakılar nədənsə şübhələnərlər deyə səs çıxarmadım. Səssizcə qatlanmış kağızı götürərək çantama qoyub arxama baxmadan oradan uzaqlaşdım. Təpəni keçdikdən sonra isə sürətimi artıraraq Səməndərlə görüşəcəyimiz yerə qaçmağa başladım. Səməndər məni çayın qırağında, alma ağacları tərəfdə gözləyəcəkdi. Elə hey qaçırdım. Yorulduğumu belə hiss etmirdim. Məktubu Səməndərə çatdırmaq üçün sürətlə qaçırdım. Alma ağaclarının yaxınlığına çatanda sürətimi azaldıb ətrafa göz gəzdirdim. Səməndərin yaxınlıqda olacağına əmin idim. Çay tərəfə doğru baxmağa başlamışdım ki, uzaqdan Səməndərin əlini gördüm. Məni yanına çağırırdı. Onu görən kimi, ağacların arası ilə ona tərəf tələsdim. Yanına çatan kimi bir söz belə deməsini gözləmədən kağız parçasını çantamdan çıxarıb ona uzatdım.

– Məktub göndərib? – sevincindən gözləri gülürdü.

– Hııı... – Gülərək qarşılıq verdim.

– Gəl burda oturaq. – Qolumdan tutaraq iri alma ağacının altını göstərdi.

Alma ağacının altında, otluğa oturduq. Səməndər cəld kağız parçasını açaraq baxdı. Sonra isə mənə göstərərək oxumağa başladı.

*“Məktubunu aldım. Yazdıqların üçün çox sağ ol. Ancaq ehtiyatlı olmalıyıq. Atamla qardaşımın sənə nəsə etməyindən narahatam. Özünə yaxşı bax.”*

Nazlı çox qısa yazmışdı. Məktubun uzun olacağını gözləyirdim. Ancaq bəlkə də belə olmalı idi. Axı heç vaxt kimdənsə məktub almamışdım. Səməndər isə sevinirdi. Bir neçə cümlə belə onun üçün çox böyük şey idi. Sevdiyindən məktub almışdı. Ondan qeyrisi bunu hiss edəcək gücə sahib deyildi.

Biz bir neçə saat da orada qaldıq. Səməndər mənə məktəb vaxtlarından bəhs edirdi. Sən demə, məktəb vaxtlarından Nazlı ilə bir-birini sevirmişlər. O vaxt məktəbdə bir araya tez-tez gəlsələr də, indi bu o qədər də asan deyildi. Nazlı Səməndərdən iki yaş kiçik idi. Sinifləri yanbayan olduğundan hər dərsdən sonra onu görər, söhbət etməyə belə macal taparmışlar. Lakin sonralar Nazlını atası məktəbdən çıxarmış, Səməndər də əsgərə getdiyindən ondan heç bir xəbər də ala bilməmişdi. Ona görə də, bu üç-dörd cümlənin onun üçün əhəmiyyəti çox idi. Atamın dediyi birinci məsələ də sən demə elə bu imiş.

***

Yayın axırlarına doğru gedirdik. Mən yenə poçtalyon olaraq, hər gün məktub daşımaqla məşğul idim. Amma gözəl şeylər də olurdu. Atam boş vaxtlarında mənimlə söhbət belə edirdi. Onun mənimlə söhbət etməsi məni həqiqətən sevindirirdi. Mələk də yavaş-yavaş böyüyürdü. Ara-sıra qırıq-qırıq “dayı” sözünü də deyirdi. Fatma xalanın oğlu da axır ki, öz evinə qayıtmışdı. Evlərində toy-bayram olmuşdu. Hətta məni də çağırmışdılar. Fatma xala oğluna məni göstərib “Səndən məktubları bu gədə gətirirdi” demişdi. Oğlu da bir mənə, bir də boynumdan asdığım

çantama baxmış, sonra da süni gülüşlə öz təşəkkürünü bildirmişdi. Ən əsas məsələ, Səməndərlə Nazlı isə demək olar ki, hər gün məktublaşırdılar. Məktubları da mən aparıb-gətirirdim. Artıq bulaq başına gələn qızlarda məsələdən agah idilər ki, Nazlı onların yanına qədər getməyimə icazə verirdi. Qızlar da "Poçtalyonun gəldi" deyə aralarında deyib-gülürdülər. Məktubu alıb eyni həyəcanla Səməndərə aparırdım. İkimiz alma ağaclarının altında oturub Nazlının yazdıqlarını oxuyurdıq. Ancaq bəzən də məktubdan gözlərimi çəkər, Səməndər üçün yazılan cümlələri görməzdən gələrdim.

Günlərin bir günü yenə Nazlının göndərdiyi məktubu oxuyurduq ki, Səməndər son cümləni oxuyub kağızı bükdü və sonra onu cibinə qoydu. Nazlıdan məktub gəlsə də, deyəsən, buna o qədər də sevinməmişdi. Əlindəki yarpaqla oynayır, gah başını aşağı salaraq fikrə dalır, gah da gözlərini uzaqlara zilləyərək dururdu. Səbəbini bilməsəm də, onu belə görməyə alışmadığımdan nəsə olduğunu zənn etdim. Çantamdan kitabçanı çıxararaq qələmlə "Nəsə olub?" – deyə yazıb ona göstərdim. Onun da dərdi açılmışdı ki, dərindən nəfəs alaraq sözə başlamağı heç iki saniyə çəkmədi.

– Nazlıdan məktub almaq yaxşı olsa da, ancaq hara qədər? Nə vaxta kimi belə uzaqdan-uzağa, o da ki, sözlərlə bir-birimizlə danışacağıq? Eh... – Köks ötürdü. Bir qədər susduqdan sonra yenidən danışmağa başladı. – Rəsulu tanıyırsan da...

– Haa...

– O dəfə məktub yazıb ki, "Bakıda, tikintidə işə başlamışam. Dolanışığım da yaxşıdır. Bir neçə aya ev də verəcəklər. Səidə gələndə onunla sən də gəl bura. Yavaş-yavaş işləyib özünə bir şeylər edərsən". Belə baxıram, düz deyir. Bakıya getməyi mən də istəyirəm. Ancaq indiki vəziyyətdə bu elə də asan görünmür.  Gərək atamla danışım. Tələsmək lazımdır.

Bakı haqqında eşitsəm də, ancaq bir neçə dəfə, onda da şəkillərdə görmüşdüm. Bacılarım Bakıda çəkmişdilər. Anama göstərərkən qıraqdan baxmışdım. Bizim çayın böyüyü varmış orda. Ancaq tərpənməzmiş, elə bir yerdə durarmış. İndi Səməndər Bakıya getmək istədiyini deyəndə şəkillər ağlıma gəlmişdi.

– Nə fikirləşirsən? – Səməndər dedi.

– Heç nə. – Kitabçaya yazıb ona göstərdim.

– Dur gedək. Hava da birazdan qaralacaq.

İkimizdə ayağa qalxaraq kəndin yolunu tutduq. Yol boyu Səməndər bir söz belə danışmadı. Deyəsən, atası ilə danışacaqlarını fikirləşirdi. Mən də başımı aşağı salaraq öz yolumu gedirdim.

Havanın qaralmasına az qalmış kəndə girdik. Mərkəzə çatıb Səməndərdən ayrılaraq dar dalanla evə doğru getməyə başladım. Artıq bir çox ev həyətlərdən asılmış lampaları yandırmışdı. Sanki Malavar kəndi qaranlıqdan işığa çıxmağa can atırdı. Ətrafa göz gəzdirərək yuxarı, evə doğru addımlamağa başladım. Həyət qapısının yaxınlığına çatmışdım ki, həyətdən qışqırıq səsləri eşitdim. Əvvəlcə heç nə başa düşməsəm də, qapıya çatdığımda səsləri ayırd edə bildim. Bu atamla Allahverdi əminin səsləri idi. Cəld qapını açaraq həyətə girdim. Allahverdi əmi atamla nə haqdasa mübahisə edir, Gülpəri ilə anam da onları sakitləşdirməyə çalışırdılar. Bacım olanlara qıraqdan baxır, Allahverdi əminin həyat yoldaşı, Durdanə xala isə stulda oturaraq ağlayırdı. Qapı səsinin eşidib hamı mən tərəfə

çevrildi. Allahverdi əmi məni görüb üstümə cummaq istəyirdi ki, atam qolundan tutub özünə tərəf çəkdi.

– Ay kişi, uşağın nə günahı var?! Yekə kişisən. Belə etməklə bütün kəndə özünü biabr edəcəksən.

– Əşşi, burax əlimi! Hər şey elə bu küçüyün işləridir. Məktubları da o gətirirdi. Burax əlimi, burax dedim!

– Allahverdi, danışığına fikir ver. Sən lap ağ eləyirsən.

– Nədir!.. düz deyirəm də. Balaca boyu ilə hamıya kələk gəlir.

– Ay ata, sən canı gedək. Bütün kənd yığışacaq indi bura. Ayıbdır axı. – Gülpəri araya girərək atasını sakitləşdirməyə çalışdı.

– Sən dur qırağa! Hələ o Səməndərə də varam. – Allahverdi əmi atamın əlindən qurtarmağa çalışırdı.

Birazda səs-küy qalxdı ki, qonşulardan bir-ikisi qapıda görünməyə başladı. Allahverdi əmi isə heç kimə fikir vermədən səsini daha da qaldırırdı.

– Əclaf elə bilir mənimlə qohum olacaq. Onun sümüklərini sındıracam. Hər şeyi mənim acığıma eliyir. – Allahverdi əmi mənə baxaraq dedi.

– Ay kişi, burda nə var axı? Nazlı da, Səməndərdə uşaq deyillər. Sən özün cavan olmamısan? – Atam Allahverdi əmini güclə də olsa, saxlamağa çalışırdı.

– Mənim Səməndərə verəcək qızım yoxdu. Kimə istəsəm ona da verəcəm.

– Bəsdir! – Gülpəri ağlayaraq atasının üstünə qışqırdı. – Sən axı nə edirsən? Məni istədiyinə verib bədbəxt elədin. İndi də Nazlını bədbəxt edəcəksən. Axı bizdən nə istəyirsən?

– Kəs səsini, küçük! – Allahverdi əmi sağ əlinin tərsi ilə Gülpəriyə necə vurdusa, qız elə ordaca yerə yıxılaraq qaldı.

– Ə sən, necə kişisən, – deyə atam Allahverdinin qolundan yapışaraq çölə doğru itələməyə başladı. – Rədd ol burdan! Bir də səni mənim qapımda görməyim.

– Həsən kişi, bunun axırı heç yaxşı olmayacaq. Baxarsan!

– Sənə o dəfə də dedim. Bəşirə bir də əl qaldırsan, əlini kəsərəm. İndi isə götür arvadınla qızını get burdan!

Durdanə xala ağlaya-ağlaya oturduğu yerdən qalxıb Gülpərini ayağa qaldırdı. Ana-bala, ikisi də ağlayaraq qapıdan çıxıb Allahverdi əminin dalıyca, aşağı doğru getməyə başladılar. Qonşular isə olanlara təəccüblə baxmaqdan başqa bir şey etmirdilər.

– Nə baxırsız əə?! Hamı evinə! Kino göstərmirlər burda. – Atam qonşuların üstünə qışqırdı.

Mənsə olanları qapının yanından izləyirdim. Atam qonşulara qışqırdıqdan sonra qapını örtərək anamla bacıma baxdı.

– Bir çay qoyun! – dedi. Sonra isə mənə baxıb gülümsəyərək əlavə etdi. – Qorxma. Sənə heç nə edə bilməz. Qorxmursanki?

– Hıı... – Mən də Gülümsəyərək başımı yellədib qorxmadığımı bildirdim.

– Onda gəl yemək yeyək. Gecdir. – Əli ilə süfrəni göstərdi.

Anam “biabr olduq. Hamı bizdən danışacaq”, – deyə dizlərinə vursa da, atamın bir baxışı ilə susaraq bacıma kömək etməyə başladı. Hamımız süfrəyə oturub yemək yedikdən sonra, otağıma gedərək yerimə uzandım. Otağın tavanına gözümü zilləyərək elə hey düşünürdüm. Səməndərlə Nazlını fikirləşirdim. Allah bilir,

Allahverdi əmi Nazlını nə günə qoymuşdu. Yazıq qız. Özümü də günahkar bilirdim. Mən olmasaydım, bəlkə də Nazlını Səməndərə verərdilər. Axı Səməndər məni poçtalyon etmişdi. Deyəsən, bu Allahverdi əminin heç də xoşuna gəlməmişdi. Sabahın açılmasını səbrsizliklə gözləyirdim. Səməndəri görməli idim.

***

Səhər açılan kimi yemək belə yemədən idarəyə gedərək Səməndərlə danışmaq istədim. Ancaq Səməndər yox idi. Xanım Qəniyeva da onun harada olduğundan bixəbər idi. Deyəsən, dünən olanları bilmirdi. “Yəqin aşağı kənddədir” deməsindən bunu başa düşmək olardı.

Məktubları çantama yığaraq idarəni tərk etdim. Onu tapacağım yeri bilirdim. İdarənin yuxarısı ilə çaya uzanan yola çıxaraq alma ağacları tərəfə doğru getməyə başladım. İnanırdım ki, Səməndəri orda tapacam. Alma ağaclarının yaxınlığına çatanda buna tam əmin oldum. Səməndər çaya tərəf duraraq əlində tutduğu daşları çaya fırladırdı. Dünən olanlar qulağına çatmış olmalı idi. Sürətimi artıraraq yanına getdim. Ona çatıb əlimi qoluna vurmağımla mənə tərəf çevrilməyi bir oldu. Ancaq onu görəndə gözlərimə inana bilmədim. Üz-gözü partlamış, sifəti gömgöy olmuşdu. Deyəsən, yamanca döymüşdülər. Yaralarını göstərib nə baş verdiyini soruşsam da elə də danışmağa həvəsli deyildi. Əlindəki son daşı da çaya fırladaraq alma ağacının dibinə bardaş qurdu. Mənsə onun yaxınlığında, ayaq üstə dayanıb danışmağını gözləyirdim. Bir neçə saniyə də əli ilə otları qopardıqdan sonra sözə başladı.

– Dünən... evə gedəndə oldu. Şahsuvar çıxdı qabağıma. Məktublardan xəbər tutubmuş. Girdik bir-birimizə. Elə o girən-girənə bu günə düşdüm. – Gülməyə başladı. Əsəbindən güldüyü bəlli idi. – İt oğlu it, eşşək boydadı.

– Heç olmasa, birini də sən vurardın. – Kitabçaya yazaraq ona göstərdim. Gülməsini istəyirdim.

– Yox. Vurdum. Bir-ikisini də mən ilişdirdim, – deyə gülməyə başladı və anidən dayandı. – Ancaq çox pis oldu. Dünəndən Nazlını fikirləşirəm. Heç nə də edə bilmirəm. Allah mənim bəlamı versin! – Səssizcə ağlamağa başladı. Gözləri qəzəbindən qan çanağına dönmüşdü. – Allahverdi atamla da danışıb. Deyib “oğlunu qızımın həndərəvərində görməyim”. Bir neçə günə də Nazlıya elçi gələcəklər. Sədrin oğluna istəyəcəklər onu. Dünən evdə atamla da mübahisə elədim. Deyir “əl çək bu işdən”. O da başa düşmür.

Səməndərin halı heç də yaxşı deyildi. Mənsə ona kömək edə bilmirdim. Bir saata yaxın yanında durduqdan sonra “get məktubları payla. Mən yaxşıyam” deyib məni kəndə göndərdi. Kəndə getmək istəməsəm də məktublara görə məcbur idim. Başımı aşağı salaraq, asta addımlara kəndin yolunu tutdum. Olanlar məni də məyus etmişdi. İndiyə kimi özüm haqqında fikirləşirdimsə, indi Səməndərlə Nazlının da taleyini düşünürdüm. Dəli Bəşiri Poçtalyon Bəşir edən Səməndərə heç bir kömək edə bilmirdim. Bu kefimi daha da pozurdu.

Kəndə girib ətrafa baxa-baxa məktubları bir-bir sahiblərinə çatdırmağa çalışırdım. Elə bilirdim, hardansa Şahsuvarla Allahverdi əmi çıxacaq, məktublara görə məni vurub, danlayacaqlar. Habil əminin qardaşından gələn məktubu qızına

verdikdən sonra qapılarından uzaqlaşıb döngəni dönürdüm ki, səksənərək yerimdə dondum. Döngədə məni Allahverdi əminin böyük qızı qarşılayırdı. Gülpəri. Məni görən kimi bir nəfəsə "Bu kağızı Səməndərə çatdır, özünə də de ki, axşam hava qaralanda Məscidin arxasına gəlsin" deyib əlimə kağızı tutuşdurdu. Keyimişcə üzünə baxdığımı görüb " Başa düşmədin?" – dedi. Başımı tərpədərək hər şeyi başa düşdüyümü bildirdim. "Onda tez ol. Get" – deyə məni tələsdirdi.

Gülpərinin yanından ayrılaraq yenidən çaya, Səməndərin yanına doğru qaçmağa başladım. Məktubların bir çoxunu paylamasam da, bu artıq məni bir o qədər maraqlandırmırdı. Kağızı Səməndərə çatdırmalı idim. Bir də ki, Gülpərinin dediklərini Səməndərə deməli idim. Elə bunları fikirləşirdim ki, anidən duraraq "axı mən necə deyəcəm?" – deyə düşündüm. Sonra kitabçam yadıma düşdü ki, yenidən çaya doğru qaçmağa başladım. Həyəcandan hər şeyi unutmuşdum. Alma ağaclarına çataraq Səməndəri axtardım. Ancaq gözə dəymirdi. Alma ağaclarından uzaqlaşaraq çaya düşən yola baxdım. Səməndər iri çay daşının altında oturmuşdu. Əlimdəki kağızı havaya qaldıraraq ona tərəf qaçdım. Məni görüb o da ayağa qalxdı. Sevincindən gözləri işıldayırdı. Üzündəki yaraların ağrısını unutmuşdu ki, mənə tərəf gəlib cəld məktubu aldı. Elə yolun ortasında oturaraq Nazlıdan gələn məktubu oxumağa başladı. Mən də kağıza baxaraq onun nə yazdığını görmək istədim.

*"Ey gecələrimi aydınladan sabah,*
*Sənsiz heç işığı olmayan çölə döndüm.*
*Ey sıxıntılarıma ümid olan rəng,*
*Sənsiz zindan içində bir əsirəm mən.*

*Səninlə hər qəm üçün səbir daşıyam,*
*Sənsiz paramparça qurur tacıyam..."*

Kağızda Mərcanın oxuduğu mahnının sözləri yazılmışdı. Nazlı bu sətrlərlə öz halını demək istəmişdi. Mən heç nə hiss etməsəm də, Səməndərin sevinci boğazında qalmışdı. Gözlərindəki kədər yenidən qayıtmışdı. Məktubu axıra kimi oxuduqdan sonra kağızı əzib qırağa tulladı. Ayağa qalxaraq yenidən gedib iri daşın altında oturdu. Mənsə cəld kitabçamı çıxararaq Gülpərinin dediklərini yazdım. Gülpərinin sözlərini mütləq Səməndərə çatdırmalı idim. Səməndərin yanına gedərək kitabçanı ona uzatdım.

– Yenə nə olub? – deyə mənə baxdı.

– Hııı... – Əlimlə kitabçanı almasını istədim.

– Ver, – deyə kitabçanı alıb yazdığımı oxudu və yerində dikələrək mənə baxdı. – Gülpəri mənimlə nə danışacaq axı?

– Hmm... – çiyinlərimi çəkərək heç nə bilmədiyimi göstərdim.

– Yaxşı. Sən get. Onsuzda axşama çox var. Gedib danışaram. Yəqin vacib söz deyəcək.

Kitabçanı alaraq yanından ayrıldım. Hələ məktubları paylamalı idim.

***

Ertəsi gün günəşin közərən şüalarının altında həyət qapısından çıxdım. Atam sürünü çoxdan yuxarı çıxarmışdı. Anamsa erkəndən qalxıb bacıma paltarlarını yığmaqda kömək etmişdi. Bugün əri gəlib onu Bakıya aparacaqdı. Mələyi bir də nə zaman görəcəyimi bilmirdim. Ona görə də gecə yarıdan oyaq idim. Səhərə kimi yatdığı yerdə onu izləmişdim. Heç yerimdən tərpənmədən.

Mələyin yuxuda gülümsəməsini fikirləşə-fikirləşə dar dalandan keçib mərkəzə çatdım. Yol qırağında, oturacaqda oturan iki yaşlı əmidən başqa mərkəzdə heç kim yox idi. Bir də Mehdi kişidən başqa. Məni görən kimi üzünü çevirərək pomidorları qablara yığmağa başladı. Deyəsən, Səməndərə görə o da məni günahkar bilirdi. Başımı aşağı salaraq sağa dönüb idarəyə tərəf qalxdım. Elə biraz getmişdim ki, altı-yeddi yaşlı bir neçə uşaq məni dövrəyə alaraq “Dəli, məktub ver! Dəli, məktub ver! Dəli, məktub ver!” – deyə qışqırıb çantamı dartışdıraraq içinə baxmaq istəyirdilər. Onlara toxunmamaq üçün əllərimi havaya qaldırıb gülür, özümdən uzaqlaşdırmağa çalışırdım. Ancaq, mən güldükcə onlar daha da yüksəkdən qışqırırdılar. Hansı tərəfə qaçmaq istəsəm də, bacarmır, yenə də onların əhatəsinə düşürdüm. Artıq səbrim tükəndiyi zaman arxadan gələn səsə uşaqlar çantamı buraxıb kənara çəkildilər. Səs Fatma xalanın səsi idi.

– İt küçükləri! Nə istəyirsiniz uşaqdan?! – deyə əlindəki nazik çubuqla uşaqları hədələdi.

– Heç nə. Oynayırdıq. – Sarışın uşaq boynunu bükərək dilləndi.

– Məktub istəyirdik ondan. – Boyca ən kiçikləri əlini mənə tərəf uzadaraq qorxa-qorxa dedi.

– Rədd olun gözümün qabağından. Hamınızın atasıyla danışacam. Tərbiyəsizlər.

Uşaqlar bu sözdən sonra bir göz qırpımında ətrafımdan dağılışıb yoxa çıxdılar. Fatma xala isə gülərüzlə mənə baxıb yenidən dedi:

– Get, bala. İşində ol.

Təbəssümlə ona baxdım və geriyə dönərək idarəyə doğru addımlamağa başladım. İdarənin həyətindən girərək pilləkənlə yuxarı qalxanda yoldaş Muxtarovla rastlaşdım. Mənə baxıb “Salam, Bəşir” deyib əli ilə başımı sığalladı. Sonra pilləkənlərlə enərək həyətdən çıxıb getdi. Onu idarədə az-az görərdim. Demək olar ki, çox vaxt rayonda olardı. Elə rayonda da yaşayırdı. Kəndə isə ayda bir dəfə gələrdi ya yox. İdarənin qapısından girib ətrafa göz gəzdirdim. Xanım Qəniyeva həmişəki kimi, öz yerində idi. Məni görüb gülümsəyərək “sabahın xeyir” dedi. Səməndər isə yenə də yox idi. Dünən Gülpəri ilə görüşəcəkdi. “Görəsən, nə danışdılar?” – deyə düşündüm. Sonra isə küncdəki masaya yaxınlaşıb məktubları səliqə ilə çantaya yığdım. “Məktublar burda idisə, deməli Səməndər idarəyə gəlmişdi. Ancaq səhər tezdən gəldiyindən onu heç kim görməmişdi”. Fikirləşə-fikirləşə çantanın ağzını bağladım. Sonra isə idarəni tərk etdim. Bugün məktub az idi. Cəmi səkkiz məktub və bir neçə qəzet.

Günortaya kimi məktubların yeddisini paylamışdım. Bircə məktub qalmışdı. Bir də qəzet. Onları isə kəndin yuxarı başında qalan Cavanşir əmiyə aparmalı idim. Cavanşir əminin yaşı səksəni adlamışdı. Ömür gün yoldaşı dediyi Hafizə xala iki il idi ki, vəfat etmişdi. O da bu iki ildə evdən demək olar ki, çölə çıxmamışdı. Ara-sıra

qapının önünə çıxar, oturacaqda oturaraq uzaqları seyr edərdi. İki oğlu, bir qızı vardı. Oğulları Bakıda yaşadığından, ancaq məktublarla bir-biri ilə əlaqə saxlaya bilirdilər. Cavanşir əmiyə isə elə kəndə ərə verdiyi qızı baxardı. Hər gün bir neçə saatlığına gələr, atasının qulluğunda dururdu.

Üzü yuxarı qalxaraq Cavanşir əminin qapısına çatdım. Qapını döymədən açıb içəri girdim. Cavanşir əmi həyətdə oturaraq toyuq-cücəyə yem səpələyirdi. Məni görən kimi əlindəki son yemi də səpələyib mənə baxdı.

– Gəl, oğul. Gəl. Xoş gəlmisən.

– Sizə məktub var. – Əvvəlcədən kitabçaya yazdığımı ona göstərdim.

– Lap yaxşı. Qoy ora. – Kitabçanı oxuduqdan sonra əli ilə masanı göstərdi.

Məktubla qəzeti masanın üstünə qoyub yenidən onun yanına qayıtdım. Onunla sağollaşıb qapıdan çıxmaq istəyirdim ki, məni yanına çağırdı.

– Getmə. Gəl bura. – Mülayim səslə məni yanına çağırdı. – Bura bax, Bəşir. Bir məsələ var. – Üzümə baxaraq bir neçə saniyə susaraq nəsə fikirləşdi. – Sən, əgər istəsən, atanla da danışacam. – Onun nə demək istədiyini başa düşməmişdim. – Mənim oğlum Sabiri yəqin ki, görmüş olarsan. Bakıda, institutda müəllim işləyir. Savadlı, bilikli biridir. – Oğlundan danışanda gözlərinin içi gülürdü. – Sabirgil hər rayonda, hər kənddə sənin kimi... – Bu sözü deyərkən ehtiyyat etdiyi bəlli olurdu. – Sən yaşda uşaqları seçib dərs keçirlər. Onlara yazıb, oxumağı öyrədirlər. Sən də bəlkə oxuyub, hansısa peşənin sahibi olarsan. Yəni... mən səni tam başa sala bilmərəm. Savadsız adamam. Əgər istəsən, atanla danışaram. Sabirə məktub göndərər, onunla hər şeyi dəqiqləşdirər. İstəyərsən?

– Haa.... – Fikirləşmədən razı olduğumu bildirdim.

– Yaxşı onda. Atanla danışaram. İndi di get. Xudahafiz, bala.

Onunla sağollaşıb həyət qapısından çölə çıxdım. Cavanşir əminin dedikləri məni həyəcanlandırmışdı. Atamla danışmasını səbrsizliklə gözləyirdim. Onun dediyi kimi, bəlkə mən də hansısa peşənin sahibi olacaqdım. Poçtalyon Bəşir alim Bəşir də ola bilərdi. Bu sözləri öz-özümə deyir, özümü lağa qoyaraq gülürdüm.

Kəndin aşağısına doğru gedirdim. Mərkəzə çatmağıma az qalmışdı. Mehdi kişi yəqin ki, yenə öz yerində idi. Sola dönərək dükanın qabağından keçəndə gözucu içəriyə baxdım. İçərdə idi. Məni görsə də, özünü görməməzliyə vurdu. Mərkəzdən ötərək dar dalana girib sürətlə yeriməyə başladım. İti addımlarla getdiyim vaxt qeybdən bir əl məni dartaraq taxta qapıdan içəri itələdi. Hər şey bir anda baş verdiyindən nəyin nə olduğunu bilənə kimi özümü köhnə anbarın içində tapdım. İçərisi yarıqaranlıq idi.

– Bəşir, qorxma. Mənəm. Səməndər. – Arxadan səs gəldi. Səməndər qapını bağlayırdı. – Bağışla! Biraz sərt oldu. Qorxmadınki?

– Hııı... – Qorxmadığımı bildirmək istədim.

– Neçə saatdır burda səni gözləyirəm. – Daşın üstünə oturdu. – Dünən Gülpəri ilə görüşdüm. – Artıq gözlərim içəriyə öyrəşdiyindən onu rahatlıqla seçə bilirdim. Üzündəki şişlər getmişdi. Bir neçə yara izi qalmışdı. – Dediyi kimi, Məscidin arxasında. Hər şeyi danışdıq. İndi... sənə bir şey deyəcəm....

***

Yatmamaq üçün yerimə belə uzanmamışdım. Saata baxırdım eləcə. Yatağımın bir küncündə oturub dəqiqələri sayırdım. Evdə bir mən oyaq idim. Gözləyirdim... Vaxtın çatmasını gözləyirdim. Qaranlıq otağın bir küncündə, yatağın üzərində. Sanki saat da məni anlayırdı. O da tələsirdi. Hər şey olsun və bitsin deyə. O da mənimlə eyni həyəcanı keçirirdi. Tik... tak... Ürəyimin döyüntüləri kimi.

Ayağa qalxaraq güzgünün önünə keçdim. Bu dəfə ikimizdə səssiz idik. Nə o gülürdü, nə mən. Bir-birimizdən gözlərimizi qaçırırdıq. Gözlərimiz də danışmırdı. Vaxtın çatdığını da o dedi mənə. Artıq mənə deyilənləri etməyin zamanı gəlib çatmış idi. Arxaya dönərək otağın qapısına yaxınlaşıb yavaşca qapının dəstəyini burdum. Eyvana çıxıb həyətə endim. Atamla anam yatmışdı. Həyət qapısını açarkən səs gəlməsin deyə çəpərin üzərindən atlandım. Küçəylə aşağı enməyə başladım. Səməndər üçün gedirdim. Dünən hər şeyi mənə danışmış, məndən bir şey istəmişdi. Onu etməyə gedirdim.

Daş evlərin arxasından keçərək Məscidə tərəf getməyə başladım. Məni Məscidin arxasında gözləyəcəkdilər. Məscidə çatıb ətrafa göz gəzdirdim. Heç kəs görünmürdü. Yavaşca arxa tərəfinə keçdim. Orda idilər. Gülpəri məni görən kimi qabağa atıldı.

– Vaxtında gəldin. – Əlindəki zənbili uzatdı. – Al, Bəşir. Bu zənbil, bu da Nazlı. O indi sənə əmanətdir. Əmanəti sağ-salamat sahibinə çatdır. Yaxşı? – deyə gülümsəyərək dedi.

Nazlı ilə Gülpəri bir-birlərini qucaqlayıb ağlaşdıqdan sonra Gülpəri göz yaşlarını silərək “artıq gecdir.Tələsin” deyib bizi yola saldı. Qabaqda mən, arxada Nazlı küçələri ehtiyatla keçir, bir adam görər deyə gizlənə-gizlənə gedirdik. Kəndin çıxışına çatıb cığırla çaya tərəf tələsdik. Səməndər bizi orada gözləyəcəkdi. Alma ağaclarının yanında dayanaraq onların gəlməsini gözlədik. Hava qaranlıq idi. Çaydan gələn uğultu səsi adamı vahiməyə salırdı. Kəndə tərəf baxaraq gələnin olub-olmadığını dəqiqləşdirmək istədim. Ancaq heç kim görünmürdü. Malavar kəndi isə hələ də yuxuda idi.

– İndiyə kimi gəlməli idilər. Görəsən, nəsə olub? – Danışığından qorxduğu bəlli idi. Necə qorxmasın axı. İlk dəfə idi.

– Hıı... – Çiyinlərimi çəkərək bilmədiyimi göstərmək istədim.

Elə bu an uzaqdan UAZ-ın səsini eşitdik. Nazlı ayağa qalxaraq səs gələn tərəfə boylandı. Mənsə cəld ağacların arxa tərəfinə keçərək Nazlını da gizlənməsini istədim. İkimizdə ağacların arxasında səsin bizə tərəf yaxınlaşmasını gözlədik. UAZ yaxınımıza çatıb dayandı. İçindən bir nəfər düşərək ətrafa boylandı. “Bəşir” deyə səslənməsindən onun Səməndər olduğunu anladıq. Nazlı dərhal ağacların arxasından çıxıb ona tərəf qaçdı.

– Burdasız? – Səməndər Nazlını görüb dedi.

– Elə bildim, nəsə olub. Gec gəldiniz.

– Səidəni götürməyə getmişdik. Ona görə biraz gec oldu.

– Qardaş, tələsməliyik. Vaxt gedir. – UAZ-ın pencərəsindən Fatma xalanın oğlu Qəzənfər dilləndi.

– Bu saat, – deyə qapını açaraq Nazlını maşına mindirdi. Sonra Mənə yaxınlaşdı. – Bəşir... hər şeyə çox sağ ol. Sən olmasaydın, mən heç nə edə

bilməzdim. – deyib məni qucaqladı. Sonra isə əlimdən zənbili alıb UAZ-ın arxasına qoydu.

– Vaxtdır, Səməndər. – Qəzənfər yenidən dilləndi.

– Gəldim, gəldim. Sağ ol, Bəşir. – Səməndər son dəfə mənlə sağollaşıb maşına əyləşdi.

UAZ yerindən tərpəndiyində mən hələ də durduğum yerdə idim. Tərpənmirdim. Onların arxasıyca eləcə baxırdım. “Kitabçaya nəsə yazıb mən də onunla sağollaşardım” deyə düşündüm və yola çıxaraq onların arxasıyca sadəcə əl sallaya bildim. Mənə əziz olan bir insanın arxasıyca əl sallayırdım. İlk və bəlkə də tək dostumun arxasıyca. Əslində, o yox. Mən ona “çox sağ ol” deməli idim. O olmasaydı, mən bu olmayacaqdım. İndi isə o da gedirdi. Öz həyatının arxasıyca. İçimdə qəribə hisslər baş qaldırmışdı. Özümü nə qədər sıxmağa çalışsam da, bacara bilmirdim. Alınmırdı və elə ilk dəfə gözlərim dolmağa başladı. Göz yaşlarım ilk dəfə süzülürdü yanaqlarımdan aşağıya doğru. Dodaqlarımı büzərək məndə yaranan bu yeni vərdişi qovmaq, mənə doğma olan gülüşü qaytarmağa çalışsam da bacara bilmirdim. Ürəyim şiddətlə döyünməyə başlamışdı və daha özümü saxlaya bilmədim ki, hönkürtü ilə ağlamağa başladım. Başımı havada qalan əlimə söykəyərək ağlayırdım. Susaraq...səssiz...

*Mən, Bəşir. Poçtalyon Bəşir. Hər şey ilk addımla başlayarmış. Mənim həyatımın ilk addımı da on dörd yaşımda atıldı. Elə burada. Bu kənddə. Malavar kəndinin küçələrində. Hər kəsin bir hekayəsi vardır, başqalarından gizlətdiyi. Danışmaq istəyib də, danışmağa gəldikdə susduğu. Mən hekayəmi danışa bilmədim, ancaq Malavar kəndi gördü. Hər saniyəsinə, hər dəqiqəsinə şahid oldu. Mənlə baxdı başqa insanlara, mənimlə dinlədi başqa insanların hekayəsini. Mən o oldum, o da arada mən. Bizim hekayələrimiz də eyni yazıldı. Onun sirri məndə gizli qaldı, mən də hər şeyi ona danışa bildim. Biz hekayəmizi də birgə yazdıq. Mən Bəşir, o da Malavar kəndi. Qələmi əlinə mən aldım, danışan isə o oldu. Bəs kim dinləyəcək?*

# SON